

# Aİ komissarı Samir Nuriyev və Hikmət Hacıyevlə görüşdü

*Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi Azərbaycana səfəri çərçivəsində Azərbaycanın Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb. "Unikal" xəbər verir ki, bu barədə avropalı diplomat özünün tvitter...*

Səh.2


# UNİKAL

№25 (2063) 9 İYUL 2021-ci il Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Eldar İbrahimovun 25 milyonluq hotelindən çıxan sadə həqiqət



Səh.9

# Prezidentin yeni strateji hədəfləri İrəvanı narahat edib

## Həftənin replikası: məmur, deputat biznessizdirsə, deməli, fərasətsizdir, ancaq...

*Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü xəbərlərindən biri də bu oldu: "Azərbaycanda deputatın 25 milyonluq mülkü üzə çıxdı!" "Unikal.org"un verdiyi xəbərdə deyilirdi ki, Milli Məclisin deputatı, Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov İsmayıllı rayonunun Talıstan kəndində "Su Meyilli" adlı hotel açıb. Hotelə Eldar İbrahimovun oğlu Elçin İbrahimov rəhbərlik edir. Bildirilib ki, deputat sözügedən hotelin tikintisinə 25 milyon manat vəsait xərcləyib.Təəccübləndikmi? Qətiyyən! Azərbaycanda müxtəlif məmurların, millət vəkillərinin geniş biznes şəbəkəsinə sahib olması, aldıqları məmur və ya deputat maaşı (!) ilə böyük sərvət sahibinə çevrilməsi adi haldır. Hətta ona görədir ki, leksikonumuza "biznesmen məmurlar", "biznesmen deputatlar" kimi yeni söz birləşmələri daxil olub.*

Səh.7

## "Yaltaqlıqdan gələn çörək də natəmizdir"



*Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev "Unikal" qəzetinə müsahibə verib. Millət vəkili ölkədəki problemlərdən, məmur özbaşınalığından, parlament üzvlərinin iradlarına hökumətdən verilən reaksiyalar barədə danışıb.*

Səh.4

## Elman Rüstəmovun dəyişdirə bilmədiyi acı reallıq



*Əgər Mərkəzi Bank, Maliyyə Nazirliyi, İpoteka və Kredit Zəmanəti Fondu qiymətli kağızlar yerləşdirməsəydilər bu dövrdə Bakı Fond Birjası (BFB), demək olar, işsiz qalardı. Bu adıçəkilən qurumun statistikasından məlum olub. Belə ki, 2021-ci ilin ilk 6 ayında Bakı Fond Birjasında əqdlərin...*

Səh.7

## İsmayıl Vəliyevin arxalandığı, yoxsa hədələdiyi güc(lər)...



*Yola salmaq üzrə olduğumuz həftə Neftçala rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev və ətrafının barəsində olan cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Nizami Quliyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı açıq elan olunub.*

Səh.5

# Mağaza Türkandan şikayət etdi - 800 manatlıq paltarları qaytarmır





***Onlayn geyim satan səhifələrdən biri müğənni Türkan Vəlizadəni paltarlarını götürüb, geri qaytarmamaqda günahlandırıb.***

”moda_sulthan” adlı mağaza sənətçinin fotosunu yayımlayaraq, ona səslənib. Bildirilib ki, Türkan mağazadan pulunu ödəmədən geyimlər götürüb, daha sonra isə zənglərə cavab verməyib:

”Kasıb adamam. Halal yolla qəpik-qəpik yığıb internet üzərindən onlayn paltar biznesi ilə məşğul oluram ki, çörəkpulum olsun. Bir həfətədir məni ələ salırsız ki, rayondayıq. İndi də telefonlarıma cavab vermirsiz. Sənin minnətlə etdiyin reklam da mənə lazım deyil. Bütün geyimlərimi, ya da pulumu qaytarmağı tələb edirəm. 800 manat bəlkə sənin üçün heç nədir, mənimçünsə böyük puldur. Ayıb deyil? Bu nə hörmətsizlikdir? Pislik etmişəm? Reklam üçün paltar vermişəm, geyin, sonra qaytar. Sənə görə niyə qazancımdan, müştərimdən olum? Reklam etməyi yaraşdırmırsansa, onda pul ver paltarı al. Get, brend geyin, köməkçilərin də İnstaqram səhifələrindən sənə paltar istəməsin”.

# "Teatra qayıtmaq üçün çıxış yolları tapmaq lazımdır"



***”Pandemiya imkan verdi ki, bir çox şeyə kənardan baxdıq. Sənətə, həyata, insanlara baxışımız dəyişdi. Ona görə də düşünürəm ki, dəyişikliklər çox olacaq. Əvvəlki kimi heç nə olmayacaq. Çıxış yolları, variantları tapmaq lazımdır. İşimizə qayıtmaq üçün işlər gedir”.***

“Unikal” xəbər verir ki, bu sözləri Əməkdar artist Sənubər İsgəndərli İTV-yə açıqlamasında deyib. Aktrisa 1 ildən çoxdur ki, teatrların bağlı qalmasından danışıb: ”Ən əsası məsələ isə odur ki, qayıdandan sonra biz tamaşaçıya nə deyəcəyik, hansı mövzulara müraciət edəcək, nələri qabardacağıq. İnandırım sizi ki, həmkarlarımdan kimdən soruşsanız eyni söz deyiləcək: balığı sudan çıxaranda necə olar? Teatr bizim evimizdir, insanı evindən çıxaranda necə olar? Teatr canlı sənətdir. Min onlayn tamaşa olsun, mükün deyil. Aktyor tamaşaçı nəfəsin duymalıdır. Onda o sehir baş verir”.



# “Xınayaxdı etməyəcəm, birbaşa toy olacaq” - Sevda Yahyayeva

***“Gəlinliyim artıq tikilib, hazırdır. Xınayaxdı mərasimini yəqin ki, etməyəcəyəm, birbaşa toy olacaq. Xınayaxdı etsəydim, xına aparan bütün məşhurları çağırardım”.***

Bu sözləri müğənni Sevda Yəhyayeva “7 canlı” proqramında deyib. O, toyundakı əsas müğənninin kimliyini də açıqlayıb: “Yəqin ki, toyda çox sayda məşhur olacaq. Amma toyu Zamiq Hüseynov aparacaq”.

Sənətçi aparıcının “hansı məşhurun maşınında gəlin getmək istəyərdin?” sualına isə ”Gəlin maşını ilə bağlı konkret avtomobil arzum yoxdur. Bəlkə, elə at olacaq?! Bilmək olmaz” cavabını verib.

# "Qadın kimi xoşbəxt deyildim" - Oksana

***Rəqqasə-aktrisa Oksana Rəsulova şəxsi həyatı barədə danışıb. Aktrisa ”Söz baz” verilişində illər əvvəl daha çox gündəmdə olsa da, qadın kimi xoşbəxt olmadığını bildirib:***



”Həmin dövrlərdə mən gündəm ola-ola xoşbəxt insan deyildim. Ana ola bilmirdim. Bir çox şeylər var idi. İnsanlar yalnız onun bir üzünü görürürdülər, amma iç üzümüzü görmürdülər. İndi tək deyiləm, övladım da var. Yalnız olsaydım, çoxdan deyərdim ki, bu belədir. Bir az çəkinirəm, səhvlər buraxmışam, onları düzəltmək istəyirəm. Çünki artıq öladım var, başqa cür yaşamalıyam. Həm onun, həm də özüm üçün”.

# Zaur Kamaldan verilişin bağlanması xəbərinə reaksiya

***Həftə içi hər axşam “ARB” kanalında ekranlara gələn “Həmin Zaur” proqramı artıq yayımlanmır.***



Məsələ ilə bağlı Unikal.org-a açıqlama verən aparıcı Zaur Kamal məzuniyyətə çıxdığını bildirib:

”Yayı dəyərləndirmək lazımdır. Yeni sezonda yenidən qarşınızda olacam. Verilişin yayımının dayandırılması ilə bağlı yayılan xəbərlər əsassızdır”.

***Gülayə Mecid***

# Dini komitə məscidlərdəki monitorinqin nəticələrini açıqladı

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ibadət yerlərində pandemiya qaydalarına əməl olunması ilə bağlı keçirilən monitorinqlərin nəticəsini açıqlayıb.***

Komitədən "Unikal"a bildirilib ki, 2020-ci ilin mart ayından koronavirus infeksiyasının qarşısının alınması məqsədilə kütləvi tədbirlər, o cümlədən qapalı məkanlardakı dini ayinlərin icrası məhdudlaşdırılıb.

Həmin tarixdən ertibarən Dövlət Komitəsi Qafqaz Müsəlmanları idarəsi və digər qurumlarla birgə Azərbaycan Respublikası Nazirlər Kabinetinin pandemiya ilə bağlı qərarlarının icrasına nəzarət etməklə bağlı müzakirələr aparıb, monitorinqlər təşkil edib və maarifləndirmə işi həyat keçirib.

Aparılmış monitorinqlər nəticəsində ibadət evlərində nadir hallarda NK-nin qərarlarının pozulduğu müşhidə edilib ki, onlar haqqında qanunvericilik çərçivəsində tədbirlər həyat keçrilib.

Nazirlər Kabinetinin 26 may 2021-ci il tarixli Qərarına əsasən iyun ayının 10-dan ibadət evlərinin fəaliyyətinə müəyyən şərtlərlə icazə verilib və bununla bağlı qaydalar elan olunub. Həmin Qərardan sonra məscidlərin fəaliyyətinin qaydalara uyğunlaşdırılmasını yoxlamaq məqsədilə zəruri işlər görülüb, çatışmazlıqların aradan qaldırılması barədə tövsiyələr verilib, həmçinin monitorinqlər təşkil olunub.

Bugünədək keçirilmiş monitorinqlərdə məscidlər və digər ibadət evlərində COVİD-19 pandemiyası ilə bağlı qaydalara ümumən riayət olunduğu müşahidə edilib. Dini icmalar tərəfindən ibadət evləri mütəmadi olaraq dizinfeksiya edilir. Həmçinin, onlar tərəfindən say məsələsinə, maska və məsafə ilə bağlı protokollara riayət olunmasına nəzarət olunur. Nadir hallarda pozuntular qeyd alınıb ki, onların bəziləri barədə qanunvericiliyin tələblərinə uyğun olaraq tədbirlər həyata keçirilib.

***Zaurə***

# ReAL Partiyadan AZAL-a sərt təpki

## Natiq Cəfərli: "Hökumət siyasi qərarlarla AZAL-a bata bilmirsə, heç olmasa, iqtisadi rəqabətlə çəki-düzən verə bilər"

***"Ölkədə AZAL-ı tənqid edtməyən bir tək Cahangir Əsgərov qalıb, amma yenə də heç bir dəyişiklik yoxdur, biletlər bahadır, inhisarçılıq davam edir. Yaxşı, hökumət AZAL-la bağlı qəti qərarlar vermir, bunu anladıq, amma heç olmasa ölkə daxilində rəqabətli mühit yaratsın ki, AZAL da qiymətləri endirməyə məcbur olsun".***

"Unikal"ın məlumatına görə, bunu ReAL Partiyanın icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli AZAL-ın təyyarə biletləri barədə deyib.

Bəs rəqabəti mühitini necə yaratmaq olar?

"Çox sadə - məsələn, Lənkəran Hava Limanının tikintisinə 51,5 mln. dollar (indiki məzənnə ilə 87 mln. manata yaxın) pul xərclənib. Hava limanı demək olar ki, çalışmır, hər il onun kommunal xərclərinə və işçilərin maaşına 5 mln. manata yaxın pul xərclənir (obyekt pul qazanmır). 2008-dən bəri Lənkəran Hava Limanının xərcləri az qala elə tikintiyə xərclənən qədər olub. İndi nə etmək olar: Lənkəran Hava Limanının AZAL-ın idarəçiliyindən tam çıxarılır, xarici şirkətlərdən birinə (Türkiyə şirkətlərinin marağı olduğunu bilirəm) idarətməyə verilir və ən vacibi, uçuşların təşkili və icazələrin verilməsi AZAL-dan alınır",-deyə N.Cəfərli bildirib.

Onun sözlərinə görə, AZAL rəhbərliyinin uçuş cədvəlinə və təşkilinə heç bir müdaxiləsi olmamalıdır: "Nəticədə Lənkəran Hava Limanına bir neçə şirkət cəlb olunur, ilkin mərhələdə Türkiyəyə, Rusiyaya, Ukraynaya uçuşlar təşkil edilir, qiymətlər Bakı Hava Limanından, ən azı 2 dəfə ucuz olur. Bundan sonra AZAL Bakıdan uçuşlarda müştərilərinin kəskin azaldığını görüb məcburən qiymətləri endirəcək. Yəni, hökumət siyasi qərarlarla AZAL-a bata bilmirsə, heç olmasa, iqtisadi rəqabətlə AZAL-a çəki-düzən verə bilər".

N.Cəfərli deyib ki, eyni yanaşmanı Qəbələ, Gəncə, Zaqatala, payızda açılacaq Füzuli Hava limanlarında da təşkil etmək olar.

"Yəni, beynəlxalq rəqabətə qısqanclıqla yanaşan hökumət və AZAL rəhbərliyi, heç olmasa daxili rəqabətə imkan yarada bilər. Bu yolla regionlarda tikilən, büdcədən ayrılan on milyonlarla manata başa gələn, uzun illərdir boş, işsiz qalan hava limanlarını iqtisadiyyatımıza qazandırmış olarıq. Çünki Azərbaycan hökumətinin "ağ fil" layihələri tək tikinti zamanı büdcəyə yük olmur, sonra da yük olmaqda, xərc aparmaqda davam edir".

***Z.Məmmədli***

# Elman Rüstəmovun dəyişdirə bilmədiyi acı reallıq

## Azərbaycanda qiymətli kağızlar bazarı hələ də yox səviyyəsindədir - düşündürücü statistika...

***Əgər Mərkəzi Bank, Maliyyə Nazirliyi, İpoteka və Kredit Zəmanəti Fondu qiymətli kağızlar yerləşdirməsəydilər bu dövrdə Bakı Fond Birjası (BFB), demək olar, işsiz qalardı. Bu adıçəkilən qurumun statistikasından məlum olub.***

Belə ki, 2021-ci ilin ilk 6 ayında Bakı Fond Birjasında əqdlərin cəmi həcmi 8 milyard 303 milyon 60 min manat təşkil edib. Əməliyyatların 8 milyard 263 milyon 724 min manatlıq hissəsi və ya 99,5%-i dövlət qiymətli kağızları üzrə (Mərkəzi Bankın notları, Maliyyə Nazirliyinin dövlət istiqrazları və İpoteka və Kredit Zəmanəti Fondunun ipoteka istiqrazları), 39 milyon 336 min manatlıq hissəsi və ya 0,5%-i özəl sektorun qiymətli kağızları üzrə (səhmlər və istiqrazları) olub.



2021-ci ilin ilk 6 ayında dövlət istiqrazları üzrə 4 milyard 392 milyon 477 min manatlıq, Mərkəzi Bankın notları üzrə 3 milyard 703 milyon 289 min manatlıq, ipoteka istiqrazları üzrə 167 milyon 910 min manatlıq əqdlər bağlanıb.

Bu ilin ilk 6 ayında korporativ qiymətli kağızlar bazarında özəl sektor tərəfindən cəmi 5 milyon 500 min manatlıq səhmlər, 2 milyon manatlıq istiqrazlar yerləşdirilib. Qısası, dövləti çıxsaq qiymətli kağızlar bazarı yox səviyyəsindədir.

Vaxtilə mövcud olmuş Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) əsas məqsədlərindən biri kimi qiymətli kağızlar bazarının inkişaf etdirilməsi göstərilirdi. MNBP özünün digər vəzifələri kimi, bu işinin də öhdəsindən gələ bilmədi. Nəticədə ləğv edildi.

3 fevral 2016-cu ildə yaradılan həmin qurumun ömrü heç dörd il çəkmədi və 2019-cu ilin 28 noyabrında onun ləğvi barədə sərəncam imzalandı. Sərəncamda qurumun müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Azərbaycan Respublikasının Mərkəzi Bankına verildi.

Deməli, hazırda qiymətli kağızlar bazarının durumuna məsul qurum da ölkənin baş bankıdır. Belədə sual yaranır: baş bankir Elman Rüstəmov və komandası yox səviyyəsində olan bu bazarın dirçəldilməsi barədə nə düşünür? Qiymətli kağızlar bazarının mövcud vəziyyətdən çıxarılması üçün nələr təklif edir? Ümumiyyətlə, edirmi?!

MNBP ləğv edilib səlahiyyətləri Mərkəzi Banka verildikdən hardasa bir il sonra KİV Mərkəzi Bankın kapital bazarları üzrə görəcəyi əsas tədbirlərin məlum olduğunu müjdələdi.

Bəs bu müjdə nədən ibarət idi? E.Rüstəmovun İdarə Heyətinin sədri olduğu baş bankın 2020-ci il və ortamüddətli dövr üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında bildirilirdi ki, bazar iştirakçıları və infrastruktur provayderləri ilə aktiv dialoq şəraitində tarif rejiminin optimallaşdırılması davam etdiriləcək; investisiya xidmətlərinin elektronlaşdırılması, investor-müəssisə münasibətlərinin dərinləşdirilməsi üçün elektron platformaların yaradılması, investorlara məsafədən ticarət aparmağa imkan verən sistemlərin tətbiqinə dair müvafiq işlər görüləcək; qiymətli kağızlar bazarında emitentlər və investorlar üçün əlverişli vergi mühitinin formalaşdırılması üzrə təşəbbüslər göstəriləcək; kapital bazarlarında təklifin stimullaşdırılması üçün qiymətli kağızların qeydiyyat prosedurunun və şirkətlər üçün listinq tələblərinin daha da sadələşdirilməsi, habelə xarici investorların cəlbinin asanlaşdırılması istiqamətində işlər gücləndiriləcək; şəffaflığın artırılması məqsədi ilə bazar iştirakçıları üçün informasiya əlçatanlığının artırılması və bu yolla informasiya assimmetriyasının aradan qaldırılması üzrə işlər görüləcək; maliyyə bazarları üzrə normativ-hüquqi bazanın gücləndirilməsi istiqamətində səylər artırılacaq; rəqabət mühitinin maliyyə xidmətlərinin keyfiyyətinin artırılmasında və maliyyə məhsullarının müxtəlifliyinin, nəticədə innovasiyanın təşviqindəki rolunu nəzərə alaraq, maliyyə bazarlarında rəqabətin təşviqi Mərkəzi Bankın diqqətində olacaq və s. və i.a.

Əlbəttə, bəyanatdakı hədəflər ölkənin kapital, o cümlədən, qiymətli kağızlar bazarının perspektivi barədə ümidverici düşünməyə əsas verirdi. Lakin aradan iki il keçdikdən sonra məlum olur ki, Azərbaycanda qiymətli kağızlar bazarı hələ də yox dərəcəsindədir, ölkəmizdə mövcud olan qiymətli kağızların dövriyyəsi sadəcə və sadəcə dövlət qiymətli kağızları ilə bağlıdır!

Deməli, Mərkəzi Bank bu istiqamətdə yetərli və təsirli işlər görə bilməyib; kağız üzərindəki bəzəkli, füsunkar görünən hədəflər əməle çevrilməyib.

***Toğrul Əliyev***

# Prezidentin yeni strateji hədəfləri İrəvanı narahat edib



**Sahib Alıyev: "Bu fərman həm də geosiyasi mahiyyətlidir"**



**Cavid Osmanov: "Bizim qonşu dövlətlərin torpağında gözümüz yoxdur"**



**Məhəmməd Əsədullazadə: "Bu strategiyanın əsas təməli Xankəndində oturmaq olacaq"**

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənib. İyulun 7-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalayıb.***

Fərmanda qeyd olunur ki, ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişib, regionların iqtisadi potensialı artıb, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb, əhalinin rifah halı yüksəlib. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirib və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb.

Sənəddə vurğulanır ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Maraqlı məqamlardan biri də odur ki, Prezident İlham Əliyevin fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması rəsmi İrəvanın narahatlığına səbəb olub. Xüsusilə Şərqi Zəngəzur iqtisadi zonasının yaradılması ilə bağlı erməni ekspertlər bədbin çıxışlar edirlər. Onların fikrincə, Azərbaycan bu gün Şərqi Zəngəzur adlı iqtisadi zona yaradırsa, gələcəkdə Qərbi Zəngəzuru da özlərinə birləşdirmək üçün indidən hazırlıq görürlər. Ermənistanda belə düşünənlərdən biri də türkoloq Varujan Qeqamyandır. Onun sözlərinə görə, Kəlbəcər və Laçının Şərqi Zəngəzur iqtisadi zonasına daxil edilməsi çox təhlükəli tendensiyanın xəbərçisidir. Qeqamyan hesab edir ki, hər nə qədər bəlağətli səslənsə də, bu, o deməkdir ki, Azərbaycanın Ermənistanla bağlı iddiaları var. "Şərqi Zəngəzur adı çox bəlağətli səslənir. Hesab edirəm ki, əgər bunun Şərqi varsa, Sünik vilayətinin yerləşdiyi Qərbi Zəngəzuru da var. Azərbaycan və Türkiyə ardıcıl olaraq, Sünikin fəthi istiqamətində çalışırlar. Nə qədər ki, Ermənistanda milli qüvvələr hakimiyyətdə deyil, onlar qələbə qazanacaqlar", - deyə erməni türkoloq vurğulayıb.

Milli Məclisin deputatı Sahib Alıyev "Unikal"a açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərmanı heç şübhəsiz ki, günün reallığından doğan bir addımdır, amma strateji hədəflidir. O bildirib ki, strateji hədəfli deyərkən təkcə iqtisadiyyatı nəzərdə tutmur. Deputatın fikrincə, bu Fərmanla regionlarda indikindən fərqli, bir tərəfdən daha təmərküzləşmiş, digər tərəfdən isə bələdiyyələrin rolunun qat-qat artacağı yeni bir idarəçiliyin himi qoyulur.

"Detallara varmadan deyim ki, Fərman həm də geosiyasi mahiyyətlidir, ikinci Qarabağ savaşının meydana çıxardığı üstünlüyün daha da dərinləşməsinə və genişlənməsinə xidmət edir. Qarabağ iqtisadi rayonunun yaradılması o deməkdir ki, bolşeviklərin "kəşf"i olan "Dağlıq Qarabağ" anlayışı tarixin əbədi zibilliyinə atılır. Şərqi Zəngəzur iqtisadi rayonunun niyə yaradıldığı və nə anlam daşıdığı isə heç kəsə sirr olmasın gərək. Sonda onu da deyim ki, mənə görə, Fərmanın indiki mərhələdə imzalanması da təsadüfi deyil. Ermənistanda kimin nə yaratmasından asılı olmayaraq regionda proseslər məhz Azərbaycanın maraqlarına uyğun şəkildə getməlidir, gedəcək!" - deyə, millət vəkili əlavə edib.

"Cənab prezident İlham Əliyevin iyul ayının 7-də imzaladığı sərəncam Azərbaycanın işğaldan azad edilən ərazilərinin iqtisadi bölgüsü haqqındadır". Bu sözləri "Unikal"a açıqlamasında millət vəkili Cavid Osmanov deyib. O bildirib ki, Şərqi Zəngəzur iqtisadi zonasının yaradılması haqqında olan erməni etirazları əsassızdır və bu sərəncam əvvəllər işğalda olan əzəli torpaqlarımızın inkişafı ilə bağlıdır:

"Azərbaycan sülh tərəfdarı və hərtərəfli əməkdaşlıq platformasından çıxış edən bir ölkədir və onun heç bir qonşu dövlətlərin torpaqlarında gözü yoxdur. Azərbaycanın belə bir niyyəti olmayıb və olmayacaq. Bu gün də Ermənistanın konstitusiyasında qonşu ölkələr üçün torpaq iddiası mövcuddur. Amma cənab prezidentin də dediyi kimi, Azərbaycanın qonşu dövlətlərin torpaqlarında gözü yoxdur. Əlbəttə, Zəngəzur Azərbaycanın tarixi torpağıdır. Bu baxımdan onun şərqi də, qərbi də Azərbaycana məxsusdur".

Politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində bildirib ki, Prezident İlham Əliyevin şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması haqqında sərəncamı siyas-tarixi əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının və revanşizmin fiaskosudur: "Zəngəzur məsələsi məhz Qarabağın kiçik bir hissəsində erməni separatizmin varlığına son qoyacaq və Xankəndində Azərbaycan bayrağının dalğalanması ilə nəticələnəcək. Proseslər ona doğur gedir. Qeyri-rəsmi olsa da, Azərbaycan konkret olaraq Qərbi və Şərqi Zəngəzur coğrafi adını siyasi leksikona daxil etdi. Ermənistanın 30 ildə bizə qarşı işğalçı, faşist, siyasəti öz əleyhinə işləyir. Ermənistanın bir çıxış yolu var, Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, sülhə getmək. Azərbaycan KTMT müşahidəçilik statusu alması, Ermənistan ərazisində Qərbi Zəngəzurda hərbi əməliyyatlar keçirməsinə mane olmayacaq. Bu strategiyanın əsas təməli Xankəndində oturmaq olacaq".

***Z.Məmmədli***



## Nazir 6 məktəb direktoruna TÖHMƏT VERDİ

***26 may-9 iyun tarixlərində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin koordinatorluğu ilə Bakı, Abşeron, Sumqayıt, Gəncə və Şəki ərazisində yerləşən 137 məktəbdə monitorinq aparılıb.***

Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, monitorinq Təhsil Nazirliyinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində monitorinqin aparılması barədə" əmrinin tələblərinə uyğun olaraq həyata keçirilib.

Monitorinq nəticəsində yoxlama aparılmış 68 dövlət məktəbində müxtəlif sayda qayda pozuntuları aşkar edilib. Qayda pozuntuları aşkar edilmiş ümumi təhsil müəssisələrinin rəhbərləri ilə bağlı əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiklərinə, əmək müqaviləsi ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdıqlarına görə müvafiq qaydada intizam tədbirləri görülüb. Belə ki, 1 məktəb rəhbərinə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 5-nə töhmət verilib, 62-nə isə xəbərdarlıq edilib.

Qeyd edək ki, monitorinqlərin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın qüvvədə olduğu müddət ərzində ölkəmizin müxtəlif regionlarında yerləşən və təsadüfi seçim əsasında müəyyən edilmiş digər məktəblərdə də həyata keçirilməsi nəzərdə tutulur.

***Aygün***

## Paşinyanın istefasını tələb edən korpus komandiri işdən çıxarıldı

***Ermənistan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun komandiri, general-mayor Qriqori Xaçaturov vəzifəsindən azad edilib.***

Unikal.org-un erməni mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə Ermənistan Prezidenti Armen Sarkisyan Fərman imzalayıb.

Q. Xaçaturov bu ilin fevralında Baş Qərargahın Baş nazir Nikol Paşinyanın istefası tələbini dəstəkləmişdi. Daha sonra o, bəyanatla çıxış edərək, Paşinyan hökumətinin istefaya getməsini tələb etmişdi.

Q. Xaçaturovun atası, keçmiş Baş Qərargah rəisi Yuri Xaçaturov eks-prezident Robert Koçaryanla birlikdə 2008-ci ildə ölkədə konstitusion quruluşun devrilməsi cinayətində ittiham olunur.

# Prezident dini qurumlara maliyyə yardımı ayırdı



***Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.***

Uzun illərdir ki, Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği cəmiyyətin mənəvi zənginləşməsinə, dost və qarşılıqlı anlaşma münasibətlərinin möhkəmlənməsinə xidmət edir.

Sərəncamda qeyd edilir ki, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılsın.

Maliyyə Nazirliyinə tapşırılır ki, sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

# Aİ komissarı Samir Nuriyev və Hikmət Hacıyevlə görüşdü

***Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi Azərbaycana səfəri çərçivəsində Azərbaycanın Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə avropalı diplomat özünün tvitter hesabında yazıb. O bildirib ki, görüşdə İqtisadi və İnvestisiya Planının tətbiqinə dair fikir mübadiləsi aparılıb: "Həmçinin görüş zamanı COVID-19-un yaratdığı çağırışlara cavab tədbirlərindən də söhbət açdıq".

Xatırladaq ki, Aİ komissarı Cənubi Qafqaz turu çərçivəsində iyulun 7-də Gürcüstanda olub, iyulun 8-də isə Azərbaycana gəlib. O, iyulun 9-da Ermənistana səfər edəcək.

O.Varhelyinin region ölkələrinə səfərinin məqsədi İqtisadi və İnvestisiya Planını təqdim etmək və ikitərəfli münasibətlərin vacib məsələlərini müzakirə etməkdir.

# Mikayıl Cabbarovdan iqtisadi rayonların yeni bölgüsü barədə açıqlama

***"Prezident İlham Əliyevin iqtisadi rayonların yeni bölgüsünü təsdiqləməsi Azərbaycan torpaqlarının tarixi adlarının bərpası baxımından xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, iqtisadi ixtisaslaşmanı səmərəli investisiya siyasətinin həyata keçirilməsini, idarəetmədə çevikliyin artırılmasını təmin edəcək".***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter"də bildirib.

"Bu yanaşma Vətən müharibəsində böyük Zəfərdən sonra formalaşmış yeni reallıqları ehtiva edir və işğaldan azad edilmiş ərazilərimizin dirçəlişi və tərəqqisi üçün mühüm təkandır. İqtisadi zonaların ahəngdar və hərtərəfli inkişafı ölkəmizin iqtisadiyyatına və xalqımızın rifahına öz töhfələrini verəcəkdir", - deyə o, qeyd edib.



# Qarabağda daha 2 erməni hərbçisinin meyiti tapıldı

***Füzuli və Cəbrayıl rayonu ərazisində daha 2 erməni hərbçisinin meyiti tapılıb.***



Unikal.org xəbər verir ki, onların cəsədləri qarşı tərəfə verilib.

Qeyd edək ki, ötən ilin noyabr ayının 13-dən başlayan axtarışlar hələ də davam edir. Axtarışlar nəticəsində 13 noyabrdan bu günə kimi 1598 erməni meyiti tapılıb.

# Məhərrəm ayının daxil olacağı tarix bəlli oldu

***"Azərbaycanda məhərrəm ayı avqustun 10-da başlayır. Həmin tarixdən 60 gün sonra məhərrəmlik başa çatır".***

Bunu Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin səlahiyyətli nümayəndəsi, din xadimi Hacı Şahin Həsənli deyib.

Azərbaycanda iyulun 1-dən etibarən 150 nəfərədək toyların keçirilməsinə icazə verilib. Avqustun 10-dan isə məhərrəmlik başlayır.

Bir ildən artıq müddətdə toyların keçirilməməsi, üstəlik "Delta" ştammı ilə əlaqədar bir çox ölkələrdə yenidən karantin tətbiq edilməsini nəzərə alaraq insanlar toylara yenidən qadağa qoyulacağını düşünürlər.



Hacı Şahin isə söyləyib ki, Məhərrəmlik matəm ayı sayılır: "Ümumiyyətlə, bu ayda İmam Hüseynə hörmət əlaməti olaraq insanlar əsrlərdir Azərbaycanda şadlıq mərasimləri keçirmirlər. Ona görə də güman etmirəm ki, məhərrəm ayında insanlar toy etsin. Çünki səfər ayı bir matəm kimi də qeyd olunur. Hər bir halda insanlar, yəqin ki, həmişə olduğu kimi buna riayət etməyə çalışacaqlar".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycanda koronavirusa yoluxanların sayı azaldı

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 104 yeni yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq sağalıb.***



Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 336 788 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330 606 nəfər müalicə olunaraq sağalıb, 4 980 nəfər vəfat edib, aktiv xəstə sayı 1202 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8709, ötən müddət ərzində isə ümumilikdə 3 821 726 test aparılıb.

# Füzulidə minaya düşənlərdən biri həlak oldu

***Füzuli rayonunun işğaldan azad edilmiş ərazilərinə qanunsuz gedərək minaya düşənlərdən biri həlak olub.***

DİN Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov bildirilib ki, artıq hər iki şəxs minaya düşdükləri yerdən çıxarılıb: "Polis və Daxili Qoşunların əməkdaşları öz həyatlarını təhlükəyə ataraq hər tərəfi minalanmış əraziyə daxil olaraq həmin iki vətəndaşın minaya düşdüyü partlayış yerinə yaxınlaşıblar.

Bu zaman Nuru Nuriyevin artıq həlak olduğunu görüblər. Onun meyiti ərazidən çıxarılıb. Minaya düşən digər şəxs - Elnur Həşimov isə hər iki ayağını itirib. Polislər onu da ərazidən təhlükəsiz formada çıxarıb xəstəxanaya təhvil veriblər". Qeyd edək ki, mərhum N.Nuriyev fevral ayında da işğaldan azad olunmuş əraziyə keçməyə cəhd göstərərkən polis əməkdaşları tərəfindən saxlanılıb və inzibati qaydada 30 sutka həbs olunmuşdu.

# Prezident XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına müraciət ünvanladı



***Prezident İlham Əliyev XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər veri ki, müraciətdə deyilir:

"Hörmətli sammit iştirakçıları! Sizi səmimi qəlbdən salamlayır və "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə gerçəkləşdirilən növbəti Avrasiya İqtisadi Zirvə Toplantısının öz işinə başlaması münasibətilə təbrik edirəm.

Avrasiya iqtisadi zirvə toplantıları uzun illərdir uğurla sülh və dialoqu təşviq edir, qloballaşma dövründə yeni çağırışların müzakirə edildiyi bir platforma kimi Avrasiya regionunda əməkdaşlığın inkişafına hər zaman dəyərli töhfələr verir. Builki sammit "İnsanlık daha iyisini hak ediyor" (Bəşəriyyət daha yaxşısına layiqdir) devizi altında keçirilir və bunun da böyük rəmzi mənası var. Bəşəriyyətin rifahı, qlobal miqyasda bütün maraqların və siyasətlərin mərkəzində insan amilinin dayanması, insanların layiq olduğu bir dünyada yaşaması üçün bu gün hər birimiz məsuliyyət daşıyırıq. Pandemiya ilə bərabər dünyamız hazırda iqlim dəyişikliyindən irəli gələn çağırışlar, qlobal təhlükəsizliyə təhdid yaradan bir sıra risklərlə üz-üzədir. Bütün bu problemlər qlobaldır və onların həlli də yalnız qlobal əməkdaşlıqla mümkündür. İnsanlığı təhdid edən problemlər üzərində birgə çalışma, ədalətin təmini, regional əməkdaşlıq, bərabərsizliyin aradan qaldırılması yeni geosiyasi nizamın da başlıca şərtidir.

Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi reallığı köklü surətdə dəyişməklə əməkdaşlığa, sülhə, regional və qlobal miqyasda dayanıqlı təhlükəsizlik sisteminin yaradılmasına istiqamətlənmiş strateji kurs həyata keçirir. İnsanlıq əleyhinə törədilmiş cinayətlərə, işğala son qoyan və regionda böyük inkişafa yol açan bu prosesdə qardaş Türkiyə bizə hər zaman yüksək dəstək verdi. Vətən müharibəsində qələbəmiz və hazırkı proseslər Azərbaycan-Türkiyə qardaşlığının, sarsılmaz birliyinin nailiyyətləridir. Ən önəmlisi isə hər iki ölkənin özü üçün bir dəyərə çevirdiyi ədalət və inkişafın qələbəsidir. Yeni geosiyasi reallığın ən böyük təntənəsi isə Şuşa Bəyannaməsidir. Bu tarixi sənəd Azərbaycanla Türkiyə arasında qardaşlıq, dostluq, tərəfdaşlıq münasibətlərini müttəfiqlik statusunda rəsmiləşdirdi. Bu təhlükəsizlik və sülhə yüksək zəmanət sənədi Cənubi Qafqaz daxil olmaqla bütövlükdə Avrasiya üçün strateji əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə regionun resurslar, kommunikasiya və logistika potensialından səmərəli istifadəyə imkan yaradan, hər kəs üçün faydalı, firavan, layiqli gələcəyin qurulması naminə inamla birgə addımlayır. Ölkələrimizin enerji təhlükəsizliyin təminatındakı qlobal rolu da Avrasiyada davamlı əməkdaşlıq və xalqların rifahı üçün möhkəm təməl olaraq qalacaqdır.

İnanıram ki, bu toplantıda aparacağınız müzakirələr bəşəriyyətin rifahı naminə əməkdaşlıq üçün yeni perspektivlərin müəyyənləşməsində faydalı olacaqdır. Zirvə Toplantısının işinə uğurlar arzulayıram".

# 68 ümumi təhsil müəssisəsində qayda pozuntuları aşkarlandı

***26 may-9 iyun tarixlərində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin koordinatorluğu ilə Bakı, Abşeron, Sumqayıt, Gəncə və Şəki ərazisində yerləşən 137 məktəbdə monitorinq aparılıb.***



"Unikal" xəbər verir ki, monitorinq Təhsil Nazirliyinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində monitorinqin aparılması barədə" əmrinin tələblərinə uyğun olaraq həyata keçirilib.

Monitorinq nəticəsində yoxlama aparılmış 68 dövlət məktəbində müxtəlif sayda qayda pozuntuları aşkar edilib. Qayda pozuntuları aşkar edilmiş ümumi təhsil müəssisələrinin rəhbərləri ilə bağlı əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiklərinə, əmək müqaviləsi ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdıqlarına görə müvafiq qaydada intizam tədbirləri görülüb. Belə ki, 1 məktəb rəhbərinə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 5-nə töhmət verilib, 62-nə isə xəbərdarlıq edilib.

Qeyd edək ki, monitorinqlərin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın qüvvədə olduğu müddət ərzində ölkəmizin müxtəlif regionlarında yerləşən və təsadüfi seçim əsasında müəyyən edilmiş digər məktəblərdə də həyata keçirilməsi nəzərdə tutulur.

# "Kənddən Şəhərə" həftəsonu yarmarkaları keçiriləcək

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 10-11 iyul tarixlərində ənənəvi "Kənddən Şəhərə" həftəsonu yarmarkaları keçiriləcək.***

Unikal.org xəbər verir ki, Bakı və Abşeron ərazisində üç fərqli ünvanda baş tutacaq yarmarkaların təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Budəfəki yarmarkalarda ümumilikdə 40-a yaxın regiondan 100-ə yaxın fermer 50-ə yaxın çeşiddə təbii kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədi ilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən ödənişsiz şəkildə faydalana bilərlər. Qeyd edək ki, yarmarkalar karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.) da təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşların temperaturları ölçüləcək, tibbi maskadan istifadəyə və sosial məsafənin gözlənilməsinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda, yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq.

"Kənddən şəhərə" yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının çıxışı)
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# Nazir Bayram Səfərovun işdən çıxardığı oğluna yeni vəzifə verdi

***Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərovun oğlu, polis polkovnik-leytenantı Xəlil Səfərova yeni vəzifə verilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, Xəlil Səfərov Baş Mühafizə idarəsinin mühafizə hissə rəisi vəzifəsinə təyin olunub.

Qeyd edək ki, o, bir müddət öncə Xətai RPİ-nin 34-cü Polis Şöbəsinin rəisi vəzifəsindən azad olunmuşdu.

***Murad İbrahimli***

# Yay Olimpiya Oyunları tamaşaçısız keçiriləcək

***Tokio-2020 Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələri və Yaponiya paytaxtının hakimiyyətinin onlayn formatda görüşü keçirilib.***

Unikal.org-un məlumatına görə, iclasda koronavirus pandemiyası ilə bağlı durum müzakirə edilib.

Qərara alınıb ki, paytaxtda, həmçinin qonşu Tiba, Kanaqava və Saytamadakı yarışlar tamaşaçısız keçirilsin. Belə qərar Tokioda fövqəladə vəziyyət elan olunduğu üçün verilib.

Fövqəladə vəziyyət avqustun 22-dək davam edəcək. Olimpiada isə iyulun 23-dən avqustun 8-dək keçiriləcək.

Qeyd edək ki, yarışın açılış və bağlanış mərasimləri də tamaşaçısız, yalnız VİP qonaqların iştirakı ilə baş tutacaq.

# Bakıda bu marşrut xəttinin hərəkət sxemi dəyişdirilir

***Sabahdan bakıda 162 nömrəli marşrut xəttinin hərəkət sxemi dəyişdirilərək Ramana yaşayış kompleksindən "Koroğlu" NMM-ə təşkil ediləcək.***

Unikal.org bu barədə Bakı Nəqliyyat Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq 162 nömrəli müntəzəm marşrut xəttinin hərəkət istiqamətində dəyişiklik edilmişdir.Bununla da həmin ərazidə məskunlaşan vətəndaşların "Koroğlu" NMM-ə birbaşa çıxışı təmin olunacaq.

# Türkiyə-Azərbaycan Peşə Təhsili Qurumu yaradılır

***Türkiyə-Azərbaycan Peşə Təhsili Qurumunun Əsasnaməsi imzalanacaq.***

Unikal.org xəbər verir ki, bu, Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığına dair fəaliyyət planında əksini tapıb.

Sənəddə qeyd edilib ki, 2021-ci ildə Türkiyə-Azərbaycan Peşə Təhsili Qurumu Əsasnaməsi qarşılıqlı razılaşma ilə tamamlanacaq və imzalanacaq. Bu işlərin həyata keçirilməsi Azərbaycan və Türkiyənin Təhsil nazirliklərinə tapşırılıb.

# “Yaltaqlıqdan gələn çörək də natəmizdir”

## Razi Nurullayev: “Mən toxunulmaz və xüsusi imtiyazlı millət vəkili deyiləm ki, mənə söz deyilməsin”

***Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev “Unikal” qəzetinə müsahibə verib. Millət vəkili ölkədəki problemlərdən, məmur özbaşınalığından, parlament üzvlərinin iradlarına hökumətdən verilən reaksiyalar barədə danışıb.***

***- Razi bəy, son dövrlər Milli Məclisdə müxtəlif problemləri qaldırırsınız. Hansı reaksiya olur, nəticə varmı?***

-Xeyli təcrübəli insanlar mənə deyir ki, nə danışırsan danış, heç nə dəyişməyəcək. Başa düşürəm ki, danışmaqla kimlərləsə əlaqə bağını, körpüləri yandırıram. Xeyli məmur incik düşür, bəzilərinin əlacı olsa, elə düşünürəm ki, məni sillə-təpiyin altına salar, ağzımın-burnumun qanını bir-birinə qatar. İndi nə edək, reaksiya olmayacaq deyə, xeyli məmur incik düşəcək deyə danışmayaq, haqsızlıqlara göz yumaq, qanunlara dəyişiklik təklif etməyək?

Haqqı demək lazımdır ki, tənqidlərdən, iradlardan və təkliflərdən sonra müəyyən dəyişikliklər olur. Ola bilsin ki, bunlar o qədər də sezilmir, amma var. Elə əlliliyin təyin edilməsi ilə bağlı qanuna az da olsa dəyişiklik edildi. Bu da nəticədir. Qaldırılan məsələlərə də reaksiyalar olur, həlli üçün addımlar atılır, təəssüf ki, xeyli yarıtmaz olur və ya yarımçıq qalır. Yeri gəlmişkən sədr Sahibə xanıma Parlament idarəçiliyinə yeni nəfəs gətirdiyi üçün təşəkkür edirəm. Prezident İlham Əliyev Parlamentin ilk iclasında çıxışında deputatlardan ciddi gözləntilərini demişdi. Bunun üçün də həqiqətləri deməkdən çəkinmək lazım deyil.

Danışdıqlarım, dediklərim, sərt çıxışlarım dövlətçiliyə, müstəqilliyə qarşı deyil, şəxsi məqsədlərə xidmət etmir, kimlərisə hədəfə almaq üçün vasitə deyil, bunlar sadəcə Azərbaycanın inkişafına yönəlik fəaliyyətlərdir. Ona görə də qoy hörmətli məmurlarımız məndən inciməsinlər, bizi danışmağa vadar edən səbəbləri aradan qaldırsınlar.

***- Məsələ odur ki, hökumət nümayəndələri problemdən danışan deputatları sevmirlər. Adətən cavabları bir olur, əsasən də bəhanə gətirirlər. Sizcə, problemi həll etmək əvəzində, bəhanə istehsal eləmək nəyin nəticəsidir?***

-Dünyanın heç bir yerində tənqidi sevmirlər. Hamı tərifi sevir. Məsələn, bir şəxs bilir ki, gözəllikdə meymundan azca fərqlidir, tərif deyirsən ki, səndən gözəli yoxdur, o dəqiqə gözü parıldayır, yerişi dəyişir və özünəinamı artır, inanır buna. Yaxud aşırı rüşvətxor bir məmura desən ki, səndən şəffaf işləyən yoxdur, düz 3 saat özünün şəffaflığı haqqında sənə elə inamla mühazirə oxuyacaq ki, az qalacaqsan cibindən pul çıxarıb verəsən ki, aparıb balalarını dolandırsın. Yəqin ki, insan təbiəti belədir. Amma, bizim cəmiyyətimiz bu mənada da ağını çıxarıb. İki dəyər inkişaf edərək zirvəyə yüksəlib: layiqsiz tərif və yaltaqlıq. Axı heç kim çörəyi qulağının dibinə yemir. Hər kəs bilir ki, kimə yalandan tərif deyilir və ya kim aşırı dərəcədə yaltaqlanır.

Kişi olmaq lazımdır, kişi. Yaltaqlıq mənim üçün iyrənclikdir. Ondan gələn çörək də natəmizdir. Gərək elə danışasan ki, heç kim sənə ikiüzlü damğası vurmasın. O qədər insan səmimi şəkildə deyir ki, Prezident İlham Əliyev qəhrəmandır, bacarıqlıdır, məntiqlidir və çox gözəl diplomatdır. Bunu mən də deyirəm və hər gün də 10 dəfə deyərəm, bu yaltaqlıq deyil, bu həqiqətin təsdiqidir. 44 günə Qarabağı almaq üçün gərək cadugər, yadplanetli, nə bilim “Rembo” olardın. Yadımdadır ki, “Rembo” filminə baxanda yaşlılar deyərdi ki, kaş bundan 10-15 nəfər olardı, gedib Qarabağı azad edərdi. Bəlkə yalan deyirəm? Bunu deyənlər çox idi. Bütün əsgər və zabitlərimiz “Rembo” oldular. İlham Əliyev də onların sırasında rəhbərlik edən “Rembo” oldu. İndi bunu demək ayıb deyil, yaltaqlıq deyil. Bunu kim edə bilərdi? Kiminsə ağlına gələ bilərdi ki, 44 günə işğala son qoya bilərik?

Keçək, sualın ikinci hissəsinə. Nəticə göstər, xalqı razı sal, olduğun sahəyə yenilik gətir və problemləri çöz. O zaman tərif də olacaq, mükafat da. Yoxsa, sən oğurla, tala, dağıt, millət vəkilinin başının altına yastıq qoy, heç nə etmə, dövlət orqanını şəxsi firman kimi idarə elə, sonra da de ki, məni niyə tənqid edirsiniz? Nə edək, yaltaqlanaq, əyilək qabağınızda, sınaq?

Min bəhanə gətirirlər, bəzən şirin danışırlar, bəzən yola verirlər, bəzən də yalanı yalana calayırlar. Bizdə belədir də, özündən böyüklərin qabağında iki qatlanırlar, əlləri sinəsində dayanırlar, özlərindən aşağıda olanlardan da eyni yanaşmanı tələb edirlər. Dünyanın 5-10 ölkəsində belə şey var.

***- Artıq iki ilə yaxındır ki, millət vəkilisiz. Ünvanlı da, ümumi də tənqidləriniz olub. Hökumət tərəfindən təpki, təzyiq olubmu?***

-Niyə olmur ki. O qədər sözlər deyilir, o qədər xahişlər olur, o qədər söz çatdırmalar olur ki. Buna da pis baxmıram. Mən toxunulmaz və xüsusi imtiyazlı millət vəkili deyiləm ki, mənə söz deyilməsin. Desinlər də, tənqid etsinlər də, məsləhət də, tövsiyyə də versinlər. Amma, haqqı və məzlumu unutmaq olmaz. Heç zaman məzlumu, imkansızı, çarəsizi tək qoya bilmərəm və onların haqqını da kiməsə yedirtməmək üçün sonuna qədər mübarizə aparıram. Bu bizim dövlətçiliyimizin güclənməsi üçündür.



Məzlumlar tanıyıram ki, futbol topu kimi oradan bura, buradan ora qovurlar. O qədər məzlumun haqqı tapdanır ki. Adamın olmasa, məhv oldun. Bunu dəyişməliyik. Hər bir vətəndaşın adamı dövlət olmalıdır. Haqqı deyək ki, Prezident bunu etmək üçün ciddi addımlar atıb, özünün timsalında nümunələr yaradıb. İndi görək ki, bunun təsiri olurmu? Müəyyən dəyişiklik var. Amma, ümumən çoxları ancaq televiziya ekranları üçün, göstərgə üçün özünü məzluma ürəyi yanan kimi göstərir. İçindən gəlmir. Mənə belə gəlir ki, cənab Prezident də bəzi məsələlərdən xəbərdardır və artıq məlumatlandırılıb. Mənim həqiqətən də Prezidentin ətrafında olan bir neçə nəfərə ciddi inamım və rəğbətim var. Məhz, ümidimi onlara bağlamışam ki, həqiqəti Prezidentə çatdırmaqla bərabər, həm də özləri vəziyyəti düzəltmək üçün xeyli işlər görür və görəcəklər.

***- Hökumətin fəaliyyətsizliyi, yaxud səriştəsizliyi hansı səbəbdəndir - sistem problemidir, yoxsa kadr problemi?***

-Sualın qoyuluşu qüsurludur. Hökumətə fəaliyyətsiz və səriştəsiz demək olmaz. Çünki, Qarabağın azad olunması zamanı da vəzifədə bu hökumət idi. Mənim dövlət orqanlarını tənqid etməyim o demək deyil ki, hər şey pisdir, hamı pisdir, 5-6 nəfər yaxşıdır. Hökumət üzvləri içərisində xeyli səriştəli və qabiliyyətli məmur var. Amma, onlar da sərbəst deyillər, bizim idarəçilik sistemimizdə basqılar var, sərbəstlik də çox azdır. Baş nazir Əli Əsədov təkliflərə açıqdır, həssasdır və xeyli müsbət işlər görüb. Amma, hər təklifin, layihənin və problemin də həlli axı onun da gücü xaricindədir. Onilliklərlə yığılmış problemlər var, cinayətlər, oğurluqlar, talançılıq və xarici bank kreditlərinə olan münasibətlərə gözucu yanaşılıb. Səbəbi də Qarabağ olub. Çünki, bütün diqqət Qarabağın işğaldan azad olunmasına və əsas güc də bu sahədə güclənməyə yönəlib, digər vacib məsələlər diqqətdən kənar qalıb deyə xeyli sui-istifadə halları olub.

İndi bunlar ciddi araşdırılmalı və hüquqi qiymət verilməlidir. Bu günə qədər dövlət idarələrinin götürdükləri kreditlərin səmərəlilik əmsalı və xərclənmə mexanizmi yoxlanmalıdır. Hesablama palatasının üzərinə ciddi iş düşür.

***-Siz millət vəkili kimi 10 minlərlə insanı təmsil edirsiniz? Onların layiqli təmsilçisi olduğunuza inanırsınızmı?***

-Sualınıza düzəliş edim. İmişlidə 80 min seçicini təmsil edirəm. Əlavə olaraq ölkənin hər yerindən, o cümlədən xarici ölkələrdən də şikayət məktubları alıram. Açığını deyim ki, mənim üçün deputat bir əraziyə bağlı deyil. O, millətin, vətənin vəkili olmalıdır. Vətənin o başı, bu başı, millətin də “yarısı sənin, yarısı mənim” olmur. Layiqli təmsilçi olmağa çalışıram, əlimdən gələni edirəm ki, vətəndaşlar razı qalsın, dövlət də məndən incik düşməsin. Axı, prinsipcə hamımız bu dövlətə xidmət edirik. Vəzifələr bu gün sənin, birisi gün başqasının ola bilər. Kreslo elə şeydir ki, asanlıqla, vicdan əzabı çəkmədən bir altdan başqa alta yuvarlana bilir. Ona görə də kreslo insanı yox, insan kreslonu şərəfləndirir.

***- Hökumətdən hesabat tələb edən Razi Nurullayev özü hesabat verirmi, verirsə, kimlərə, necə?***

-Hər gün o qədər seçici, şikayətçi, zəng edən olur ki, elə hamısına hesabat veririk də. Jurnalistlərə hesabat veririk, təmsil etdiyimiz partiyaya hesabat veririk, dövlətin qarşısında hesabatlılığımız var, onu da edirik. Hər gün yazırıq, pozuruq, Ermənistan mətbuatını izləyib, lazımi cavabları veririk, dövləti qoruyur və bunun hesabatını veririk. Biz hər gün hesabatdayıq. Hər gün seçiciləri, şikayətçiləri qəbul edib dinləyirəm, köməklik edirəm, məzlumun yanında dayanıram və bunun da hamısı haqqında hesabatı media və sosial şəbəkələr vasitəsilə paylaşıram.

Bütün məsuliyyətli və dövlətsevər siyasətçilər həm öz vicdanları, həm xalqı, həm də dövləti qarşısında hesabat verirlər. Fəaliyyətimi, çıxışlarımı, yazılarımı hər gün açıq olaraq paylaşıram, fikirlərimi gizləmirəm, tənqidi açıq edirəm, hökumətin yaxşı işini də açıq deyirəm, Prezidentin bir sıra addımlarını da açıq müdafiə edirəm və mövqeyimi də açıq sərgiləyirəm. Elə bütün bunlar cəmiyyət qarşısında verdiyim hesabatdır da...

Amma elələri var ki, yüksək postları zəbt ediblər, qanunsuz milyonları, bəlkə də milyardları var, amma hansı hesabatı veriblər? Tənqid olunmasınlar deyə, bir çox naqisliklərə münasibət də bildirmirlər ki, birdən onları da hədəf alıb söyərlər. Amma, onlar elə hədəf olub söyülənlərin, dövlətçilik adına təhlükəsizlik yastığı rolunu üzərinə götürənlərin sayəsində var-dövlətə sahib olublar, əsayişdə yaşayıblar, indi də bu söyülənlərə, “təhlükəsizlik yastıqları”na barmaq arası baxırlar.

***Z.Məmmədli***

# İsmayıl Vəliyevin arxalandığı, yoxsa hədələdiyi güc(lər)...

## Neftçalanın sabiq icra başçısı ifadə verməkdən niyə imtina etdi? - Sensasiyalı iddia!

***Yola salmaq üzrə olduğumuz həftə Neftçala rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev və ətrafının barəsində olan cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Nizami Quliyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı açıq elan olunub. Daha sonra prosesdə prokuror ittiham aktını elan edib.

Ardınca isə ictimai rəydə gözlənilməz sayılan məqam yaşanıb: sabiq icra başçısı ittiham üzrə özünü, gülməli də səslənsə, təqsirli bilməyib və bu mərhələdə ifadə verməkdən boyun qaçırıb!

Komikdir, elə deyilmi? Bu həmin sabiq icra başçısıdır ki, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən ötən ilin fevralında həbs edilmişdi, həm də kabinetində! Üstəlik, əməliyyat nəticəsində İsmayıl Vəliyevin mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib, sabiq icra başçısının, habelə icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, tabeçiliyində olan digər vəzifəli şəxslər vasitəsi ilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək aldığı ortaya çıxıb. Bu qanunsuz əməlləri sübut edən faktlar - müxtəlif yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib edilmiş siyahıları, külli miqdarda pul vəsaitləri, sənədlər və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

İndi isə belə məlum olur ki, İsmayıl



Vəliyev özünü təqsirli bilmir və ifadə verməkdən imtina edir? Maraqlıdır, niyə?

Bu həmin sabiq icra başçısıdır ki, korrupsiya əməllərinə görə kabinetində qandallandıqdan sonra barəsində həbs qətimkan tədbiri seçilmiş, lakin məhkəmənin bu qərarından apellyasiya şikayəti verməmişdi! Təəccüblüdür: əgər bu gün İ.Vəliyev özünü günahsız sayırsa, onda niyə elə ilk mərhələdəcə bunu dilə gətirməmiş, haqqındakı həbs qətimkan tədbirinin dəyişdirilməsini istəməmişdi?

Yuxarıdakı suala müxtəlif cavablar, daha doğrusu, cavab olaraq çeşidli versiyalar irəli sürmək mümkündür. Məsələn, ola bilər, sabiq icra başçısı apellyasiya şikayəti verməməklə hakimiyyət dairələrində qıcıq yaratmamaq istəyib. Beləcə, barəsindəki qərarın dəyişdiriləcəyinə ümid bəsləyib.

Ya da himayədarlarının onu belə çətin vəziyyətdə qoymayacağını düşünüb və arxayın davranmağı üstün tutub. Fikirləşib ki, necə olsa da, onu ölkənin aparıcı rayonlarından birinin icra başçısı postuna irəli çəkənlər halına bir əncam çəkəcəklər.

Belə versiyaların siyahısını uzatmaq mümkündür.

Və bu, eləcə də başqa versiyalardan çıxış edərək onu da söyləmək mümkündür ki, sabiq icra başçısı indi barəsindəki cinayət işi üzrə məhkəmə prosesində günahsız olduğunu söyləyərək, eləcə də hazırkı mərhələdə ifadə verməkdən boyun qaçıraraq iki şey hədəfləyib. Bir: bununla o, arxalandığı güc, yaxud güclərə mesaj verir ki, ondan (yaxud onlardan!) ümidini tam kəsməyib, özü ilə bağlı məhkəmə prosesinin yekun nəticəsinin həmin güc və ya güclər tərəfindən müsbət yöndə dəyişdiriləcəyinə inanır. Odur ki, özünü olduqca rahat aparır!

İki: O da mümkündür ki, İ.Vəliyev günahsız olduğunu söyləyərək, eyni zamanda hazırkı mərhələdə məhkəmə ifadəsi verməkdən imtina edərək himayədarına (ya da himayədarlarına!) hədələyici mesaj yollayır. Demək istəyir ki, əgər onu düşdüyü vəziyyətdən çıxarmasalar "açacaq sandığı, tökəcək pambığı...". Yəni, qol qoyduğu korrupsiya cinayətlərində əsl günahkar(lar)ın illər uzunu bəslədiyi daha iri məmurlar olduğuna işarə vuracaq. Beləliklə, özü yandığı "atəşə" həmin güc və ya gücləri də yandıracaq.

Açığı, sabiq icra başçısının barəsində bəhs elədiyimiz davranışının səbəb(lər)i barəsdə düşünərkən ağlımıza başqa variantlar gəlmədi. Fikrimizcə, sadaladığımız variantların həqiqətlə nə qədər örtüşdüyünü çox gözləməyəcəyik. Çünki proqnozumuz İsmayıl Vəliyevin növbəti məhkəmə proseslərində kifayət qədər ilginc nüansların ortaya çıxacağı, hətta bir çox iri məmurların çətin vəziyyətə düşə biləcəyi yönündədir.

Sözügedən proqnozumuzda yanılıb-yanılmadığımızı isə tezliklə görəcəyik. Odur ki gəlin, çox da tələsməyək...

***Toğrul Əliyev***



# Elmar Vəliyevdə psixi pozğunluq durumu yaranıb

***Gəncənin sabiq icra başçısı barəsində ekspertizanın nəticəsi məlum olub.***

"Unikal" xəbər verir ki, vəkil Cavad Cavadov bildirib ki, "Gəncə işi" ilə bağlı məhkəmə iyulun 15-də davam edəcək. "Gəncənin keçmiş icra başçısı Elmar Vəliyevlə bağlı ekspertiza rəy verib ki, sui-qəsd nəticəsində psixi pozğunluq durumu yaranıb və məhkəmədə dindirilməsi vəziyyətinin pisləşməsinə səbəb ola bilər", - deyə vəkil qeyd edib.

Xatırladaq ki, bu il martın 16-da "Gəncə işi" ilə bağlı məhkəmə prosesində prokuror çıxış edib. Dövlət ittihamçısı çıxışında təqsirləndirilənlər Yunis Səfərovun ömürlük, Mahir Əzizovun 20 il, Hamlet Abdullayevin 19 il, Akif Əliyevin 20 il, Rasim Mustafayevin 20 il, Ceyhun Qurbanovun 18 il, Firudin Zeynalovun 19 il, Cəfər Zalovun 18 il, Vüqar Məmmədovun 19, Ceyhun Salahovun 19 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Bakı Ağır Cinayətlər Məhkəməsində işə baxan hakim Əfqan Hacıyev bildirib ki, bəzi şəxslərin dindirilməsi zəruridir, ona görə də istintaq yenilənib.

Vəkillər israrlı vəsatətlərlə sabiq icra başçısı Elmar Vəliyevin də dindirilməsini istəyiblər. Bu səbəbdən məhkəmə onun dindirilməsinin mümkün olub-olmaması ilə bağlı ekspertizaya müraciət edilib. Ondan sonra məhkəmə prosesi qeyri-müəyyən müddətə təxirə salınmışdı.

Qeyd edək ki, 2018-ci ilin iyulun 3-də Yunis Səfərovun xarici dövlətlərdə fəaliyyət göstərən radikal dini dairələri təmsil edən mütəşəkkil dəstə tərkibində Gəncə şəhərində şəhər İcra Hakimiyyətinin başçısı və polis əməkdaşına qarşı əvvəlcədən planlaşdırılmış terror aktı olmaqla Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, şəriət qanunlarına əsaslanan idarə üsulunun təşkilinə yönələn terrorçuluq, qanunvericiliklə nəzərdə tutulmayan sabit silahlı qrupun yaradılmasına, ölkəmizin hüdudlarından kənarda silahlı birləşmələrdə təlim keçilməsi, çoxsaylı odlu silah, döyüş sursatı və partlayıcı qurğuların quldurluq və digər qanunsuz yollarla ələ keçirilərək saxlanılması, polis əməkdaşlarının ağırlaşdırıcı hallarda qəsdən öldürülməsinə cəhd edilməsi, ayrı-ayrı vəzifəli şəxslərin dövlət xadimləri kimi xidməti fəaliyyətlərinə son qoymaq və bu fəaliyyətə görə qisas almaq məqsədilə terror aktlarına hazırlıq, dövlət əleyhinə açıq çağırışlar və törətdikləri sair ağır və xüsusilə ağır cinayət əməllərinə görə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində başlanmış cinayət işinin istintaqı aparılıb.

Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu tərəfindən cinayət işi üzrə çoxsaylı istintaq hərəkətləri aparılmaqla Y.Səfərov da daxil olmaqla mütəşəkkil dəstənin 12 üzvü barəsində istintaq yekunlaşdırılaraq 2019-cu il dekabrın 5-də baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət işinə Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Məhəmməd Bağırovun sədrlik etdiyi kollegiya baxan zaman müdafiə tərəfi etiraz verərək Gəncə Ağır Cinayətlər Məhkəməsinin sədri Natiq Əliyevin iş üzrə zərərçəkmiş Elmar Vəliyevlə qohumluq əlaqəsinin olması səbəbilə işin başqa məhkəməyə göndərilməsini istəyib.

Gəncə Apellyasiya Məhkəməsinə etirazı əsaslı hesab edərək, cinayət işini baxılması üşün Bakı Ağır Cinayətlər Məhkiəməsinə göndərib.

# Bu şəxslərin bir doza vaksin vurdurması kifayətdir - Nazir müavini

***"6 ay əvvəl koronavirusa yoluxmuş şəxslərin hazırda bir doza vaksin vurdurması kifayətdir".***

"Unikal" xəbər verir ki, bu barədə APA-ya səhiyyə nazirinin müavini Viktor Qasımov deyib. Nazir müavini bildirib ki, həmin şəxslərin ikinci doza peyvənd vurdurmasına ehtiyac duyulmur: "Amma hər halda bu məsələyə yaxın günlərdə aydınlıq gətiriləcək".

Qeyd edək ki, Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının qərarına əsasən, xəstəliyi keçirmiş və qeydiyyatda olan şəxslər sağaldıqdan 6 ay sonra COVID-19-a qarşı Azərbaycanda istifadə olunan hər hansı vaksinin bir dozasını aldıqda "İmmunitet sertifikatı"nın müddəti 6 ay uzadılacaq.

Həmçinin peyvəndlənmiş vətəndaşlar ikinci dozanı aldıqları tarixdən 6 ay keçdikdən sonra müvafiq tibbi göstərişlərə uyğun olaraq COVID-19-a qarşı Azərbaycanda istifadə olunan hər hansı vaksinin bir dozasını aldıqda "Vaksin sertifikatı"nın müddəti 6 ay uzadılacaq.



# Səfər Mehdiyev xüsusi tapşırıqlar verdi

***İyulun 7-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Rusiya Federasiyası ilə sərhəddə yerləşən Şimal Ərazi Baş Gömrük İdarəsinin "Xanoba" gömrük postunda aparılan tikinti işləri ilə tanış olub.***

"Unikal" xəbər verir ki, ərazidə həyata keçirilən tikinti və yenidənqurma işləri ilə bağlı Komitə sədrinə ətraflı məlumat verilib. Dövlət Gömrük Komitəsinin sədri postda gömrük rejimi zonasında, idxal-ixrac nəzarət xəttlərində, postun inzibati binasında tikinti işlərinin gedişatı ilə maraqlanıb, müvafiq tapşırıqların icra vəziyyətini öyrənib, inşaat işlərini həyata keçirən mütəxəssislərlə söhbət edib, tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, "Xanoba" gömrük postundakı inşaat işləri Prezident İlham Əliyevin ötən ilin aprel ayında imzaladığı sərəncama əsasən aparılır. İnşaat işləri başa çatdıqdan sonra gömrük postunun buraxılış qabiliyyətinin artması ilə yanaşı, ən müasir avadanlıqlarla təchiz edilməsi də nəzərdə tutulur. Bundan başqa "Xanoba" gömrük postu Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə yüklərin daha sürətli daşınmasına, sərhədkeçmə proseslərinin asanlaşdırılmasına, ölkəmizin tranzit imkanlarının genişlənməsinə, xüsusilə Azərbaycan-Rusiya sərhədində yaranan növbələrin tam aradan qaldırılmasına şərait yaradacaq.

***Gülayə***

# Zəngilanlı köçkünlərdən Almaniya səfirinə müraciət

***Zəngilan rayonundan olan məcburi köçkünlər Almaniyanın "CRONIMET" şirkəti ilə bağlı tədbir görülməsi üçün bu ölkənin Azərbaycandakı səfiri Volfqanq Maniqə müraciət ediblər.***

"Unikal" müraciəti təqdim edir. "Biz, Zəngilan rayonundan olan məcburi köçkünlər sizə doğma yurd yerimizdə Ermənistanın işğalı zamanı törədilən ekoloji terrorla əlaqədar müraciət edirik. Biz 30 ilə yaxın müddətdə Azərbaycanın müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmışıq. Bir an da olsa doğma yurd-yuvamıza qayıdacağımıza inamımızı itirməmişik. Ötən ilin sentyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi, o cümlədən bizim məcburi köçkün düşdüyümüz Zəngilan rayonunu işğaldan azad edib.

Qazandığımız Qələbə böyükdən-kiçiyə hər birimizdə böyük ruh yüksəkliyi yaratdı, tezliklə əvvəlki yaşayış yerlərimizə qayıdacağımız günü gözləyirik. Amma Zəngilanın ekoloji terrora məruz qalması bizdə məyusluq yaradır. Zəngilanlılar Oxçuçaydan həm suvarma, həm də ətrafında istirahət etmək, orada balıq tutmaq üçün istifadə ediblər. İndi Ermənistanın çayın mənbəyində yerləşən Qacaran mis-molibden, Qafan mis saflaşdırma kombinatlarının toksik tullantıları, eyni zamanda, həmin şəhərlərin məişət-çirkab suları təmizlənmədən birbaşa Oxçuçaya axıdılır. Ermənistanda mədənçıxarma sahəsi üzrə fəaliyyət göstərən Almaniyanın "CRONIMET" şirkəti ekostandartlara riayət etmir, nəticədə yalnız Zəngilan rayonu üçün deyil, ətraf regionlar üçün də ekoloji terror təhlükəsi yaranır.

Yaranmış problem çaydan suvarma məqsədilə istifadəni qeyri-mümkün edir, balıqlar kütləvi şəkildə məhv olur. Biz - 30 ilə yaxın bir müddətdə yurd həsrəti ilə yaşayan zəngilanlılar ata-baba torpaqlarımızda törədilən bu terrorun dayandırılmasını tələb edirik. Ekoloji standartlar ölkəsi olan Almaniyanı digər ölkələr üçün təhlükəli vəziyyətin yaranmasına səbəb olan "CRONIMET" şirkətinə qarşı təcili tədbir görməyə çağırırıq.

Biz - bu müraciəti imzalayan zəngilanlılar "CRONIMET" şirkətinin fəaliyyətinin təcili dayandırılmasını tələb edirik. Əks halda, ekoloji terror törədən təşkilat və Almaniya ilə əlaqədar beynəlxalq məhkəmələrə müraciət edəcəyik".

Qeyd edək ki, məktubu Zəngilanın erməni silahlı birləşmələri tərəfindən işğalı nəticəsində rayondan didərgin düşmüş 100-dən çox məcburi köçkün imzalayıb.

# Elmar Məmmədyarova ad günü şoku...

## Sabiq Xarici İşlər naziri doğum günündə tək qaldı



***Azərbaycanın keçmiş Xarici İşlər naziri Elmar Məmmədyarov bu günlərdə 61 yaşını qeyd edib. Əlbəttə, əgər buna qeyd etmək demək mümkündürsə...***

"Unikal" qəzetinə məlumatlı mənbədən daxil olan məlumata görə, sabiq nazirin iyulun 2-də 61 yaşı tamam olub. Lakin xüsusilə 2004-cü ildə XİN başçısı təyin edildikdən sonra ad günləri kifayət qədər təmtəraqlı keçən Məmmədyarov bu dəfə təbrik mesajlarına həsrət qalıb. Onun doğum gününü yalnız ən yaxınları təbrik edib.

"Məsələn, 2019-cu ildəki ad günü sabiq nazir üçün yetərincə yaddaqalan idi. Onu təbrik edən nüfuzlu, vəzifəli şəxslər ən xoş diləklərini çatdırır, növbəti ildə 60 illik yubileyinin yaddaqalan olacağına inamlarını dilə gətirirdilər. Hətta o vaxt Məmmədyarov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif də olunmuşdu. Lakin proseslərin sonrakı gedişi tamam fərqli mənzərə yaratdı. Eks-nazirin 60 illiyi tamamilə səssiz-səmirsiz keçdi. Halbuki o, yüksək dövlət ordenlərindən biri ilə təltif olunacağını gözləyirdi" - deyə məlumatlı mənbə qəzetimizə bildirib.

Məsələ burasındadır ki, E.Məmmədyarovun 60 yaşının tamam olmasından iki həftə sonra, 2020-ci il iyulun 15-də baş tutan Nazirlər Kabinetinin iclası zamanı Ölkə başçısı Tovuz döyüşləri (həmin il iyulun 12-dən başlayaraq təxminən 10 gün davam etmişdir) zamanı Xarici İşlər Nazirliyinin və nazir Elmar Məmmədyarovun göstərdiyi fəaliyyəti sərt tənqid etdi. Dövlət rəhbəri həmçinin Məmmədyarovun rəhbərliyi altında son vaxtlarda Xarici İşlər Nazirliyinin əsas iş prinsipinin "dəymə mənə, dəyməyim sənə" prinsipinə əsaslandığını, yəni XİN-in hücum diplomatiyası əsasında işləyə bilmədiyini söylədi.

Əslində ölkə rəhbərliyi XİN-in o vaxtkı başçısının işindən xeyli vaxt idi narazı idi; Tovuz döyüşləri zamanı Məmmədyarovun fəaliyyətsizliyi, hətta həmin günlərdə iş başında tapılmaması bu narazılığı daşıran son damla oldu. Əks təqdirdə Elmar müəllim həmin döyüşlərdən on gün öncə 60 illiyi münasibətilə ən azından hansısa şəkildə təltif edilərdi.

Nəticədə 16 iyul 2020-ci ildə ölkə başçısının sərəncamı ilə Elmar Məmmədyarov xarici işlər naziri vəzifəsindən uzaqlaşdırıldı. Bunun ardınca isə eks-naziri şoka, eyni zamanda qorxuya salan hadisə yaşandı - onun Azərbaycanı tərk etməsinə qadağa qoyuldu; səbəb isə XİN sistemində yol verilmiş korrupsiya və mənimsəmələrə dair Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən aparılan istintaq idi. XİN-in bir neçə yüksək vəzifəli əməkdaşının rüşvət, korrupsiya və mənimsəmə ittihamları ilə DTX əməliyyatçıları tərəfindən həbsi hətta Məmmədyarovun özünün də qandallana biləcəyi ehtimalını gündəmə gətirmişdi. Lakin bu baş vermədi: keçmiş nazir "sudan quru çıxmağı" bacardı - ən azından hələlik!

Bütün bunlar isə ona gətirib çıxardı ki, bir vaxtlar doğum günlərində telefonları susmayan, təbrik üstünə təbrik alan keçmiş Xarici İşlər naziri bu dəfə ailə üzvlərinin, digər yaxınlarının təbrik mesajları ilə kifayətlənməli oldu. Üstəlik, doğum gününü ölkədən kənarda, dünyanın lüks istirahət bölgələrində qeyd eləmək imkanı da baş tutmadı.

Bu bir yana qalsın, görün həyatın necə qəribə işləri var: sən vur-tut nazir ola-ola oğlunun adına qaynağı naməlum (əslində məlum!) pullar hesabına ABŞ-ın göbəyində, Nyu-Yorkda 2 milyon dollara mənzil al, ancaq ölkədən çıxmağına qoyulan qeyri-rəsmi qadağa səbəbilə axırda hətta həmin mənzildə belə ad gününü qeyd eləmək fürsəti tapa bilmə!

Elə isə sabiq nazirdən soruşmaya bilmirsən: ölkənin bu günü və gələcəyi adına həlledici vaxtlarda, dövlət və millət adına taleyüklü məsələlərin ortaya çıxdığı bir zamanda XİN kimi önəmli, strateji bir quruma effektiv rəhbərlik etmək yerinə rüşvət və korrupsiyaya bulaşmağa, şəxsi mənfəət dalınca düşməyə dəyərdimi, Elmar Məmmədyarov!

Ən əsası: Azərbaycanın diplomatiya idarəsinə elə rəhbərlik edər, xarici siyasət kursunun icrasında elə doğru işlər görərdin ki, bu gün nazir olmasan belə yenə də doğum günlərində ehtiramla xatırlanardın, doğmalarından qeyri şəxslərin təbrik zəngləri, mesajları, hədiyyələri, ziyarətləri üçün gözün gah telefonda, gah da qapıda qalmazdı. Bəlkə düz demirik?!

***Sənan Mirzə***

# "Qarabağ məsələsi ilə bağlı Azərbaycanla kontaktdayıq" - Peskov

***Qarabağ məsələ ilə bağlı üçtərəfli sazişin icrasına dair Azərbaycanla əlaqələr daimi xarakter daşıyır.***



Unikal.org-un məlumatına görə, bu barədə Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında iyulun 7-də Moskvada Putin-Paşinyan görüşünün baş tutmasından sonra Azərbaycan tərəfi ilə də hər hansı danışıqların gözlənildiyinə dair suala cavabında bildirib.

"Azərbaycan tərəfi ilə kontaktlar daimi əsaslarda davam edir. Hamı razılaşır ki, üçtərəfli razılaşmanın müddəalarının həyata keçirilməsi çox vacib və alternativsizdir. Bu çərçivədə də həm Ermənistan, həm də Azərbaycan tərəfi ilə kontaktlar həyata keçirilir", - deyə Kremlin sözçüsü vurğulayıb.

# Eldar İbrahimovun 25 milyonluq hotelindən çıxan sadə həqiqət

## Həftənin replikası: məmur, deputat biznessizdirsə, deməli, fərasətsizdir, ancaq...

***Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü xəbərlərindən biri də bu oldu: "Azərbaycanda deputatın 25 milyonluq mülkü üzə çıxdı!"***

"Unikal.org"un verdiyi xəbərdə deyilirdi ki, Milli Məclisin deputatı, Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov İsmayıllı rayonunun Talıstan kəndində "Su Meyilli" adlı hotel açıb. Hotelə Eldar İbrahimovun oğlu Elçin İbrahimov rəhbərlik edir.

Bildirilib ki, deputat sözügedən hotelin tikintisinə 25 milyon manat vəsait xərcləyib.

Təəccübləndikmi? Qətiyyən! Azərbaycanda müxtəlif məmurların, millət vəkillərinin geniş biznes şəbəkəsinə sahib olması, aldıqları məmur və ya deputat maaşı (!) ilə böyük sərvət sahibinə çevrilməsi adi haldır. Həttа ona görədir ki, leksikonumuza "biznesmen məmurlar", "biznesmen deputatlar" kimi yeni söz birləşmələri daxil olub. Bizdə biznessiz məmur, deputat, bir növ, susuz hovuz, barsız ağac, canım sizə desin, pərvanəsiz şam kimidir, camaat bələlərinə birtəhər baxır, fərasətsiz-zad hesab edir.

Bu mənada Eldar müəllimin kimdən nəyi əskikdir?! Onun niyə çoxmilyonluq hoteli, şadlıq evi, fermer təsərrüfatı, tikinti şirkəti... olmamalıdır?!

Yalnız ortada kiçik bir əmma var: məmurlarımız, deputatlarımız harda bir biznesləri, mal-mülkləri ortaya çıxsa, ya bunu yalanlamağa çalışırlar, ya da "məmuruq, deputatıq deyə övladlarımız bizneslə məşğul ola bilməzlər?" deyərək vəziyyətdən çıxmaq istəyirlər. Elə təzəlikcə Bakının sabiq meri və Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov övladlarının fantastik miqyasa malik biznesi barədə soruşarkən deməmişdimi ki... Sitat: "Ataları mənəm deyə, özlərinə iş qur-



mamalıdırlar, öz ailələrini dolandırmamalıdırlar? Hamı hansısa işilə, əməyilə ailəsinə çörək qazanır, mənim övladlarım da o insanlardan biridir".

Əlbəttə, ataları məmurdur, deputatdır deyə kimsəyə biznesi yasaqlamaq mümkün deyil; heç onlara bunu irad tutmağı da doğru saymırıq.

Sadəcə sual vermək istəyirik: necə olur ki, Azərbaycanda "uğur hekayələrini" daha çox məmur, deputat övladları yazırlar? Necə olur ki, normal ölkədə hansısa biznesmenin böyük bir sərvət sahibi olması üçün on illər boyunca tər tökməsi lazım gələrkən, bizdə hansısa məmur, deputat övladı cəmi bir neçə ilin içərisində, "Forbes"in milyonçular, milyarderlər siyahısındakı ən varlı iş adamlarını belə qısqandıracaq sürətlə nəhəng biznes sahibinə çevrilir, misli görünməmiş sərvət yiyəsi olurlar? Üstəlik, bələlərinin arasında hətta hələ ali təhsilini tam başa vurmamış, 20-25 yaşlı gənclər də az deyil? Doğrudanmı, onların yazdığı "uğur hekayəsi"ndə atalarının yüksək dövlət postları tutmasının, deputat olmasının heç bir rolu yoxdur?!

Yoxdursa, onda niyə hansısa məmur, deputat öz vəzifəsini, kreslosunu, inzibati-administrativ statusunu, imtiyazlarını itirdikdə onun biznesi də sürətlə zəifləməyə, süqut etməyə başlayır? Məsələn, bu gün doğulduğu Ucar rayonunda mal-qara saxladığını, arpa-yonca əkib dolanışığını təmin etdiyi barədə "ürəksizladan" açıqlamalar verən Ziya Məmmədovun vəzifədə olarkən günbəgün böyüyən biznes imperiyası nə üçün o, postunu itirən kimi kəlləmayallaq oldu? Hanı Ziya müəllim Nəqliyyat naziri işlədiyi müddətdə uğur üstünə uğur qazanan oğlu Anar Məmmədov? Niyə atası işdən çıxarıldıqdan sonra onun Avropaya belə ün salan biznes nailiyyətlərindən heç bir xəbər çıxmır?

Uzun sözün qısası, məmurlarımızın, deputatlarımızın, onların ailə üzvlərinin qısa vaxtda böyük biznes sahibi olmalarına heç bir sözümüz yoxdur. Sağlıqlarına qismət! Qazancları bol olsun!

Ancaq bir şərtlə: belə məmurlarımız, deputatlarımız hardasa bir obyektləri, şirkətləri, mal-mülkləri ortaya çıxanda bunu yalanlamağa, ya da "mən məmuram, mən deputatam deyə ailə üzvlərim bizneslə məşğul ola bilməzlər?" söyləyib söhbəti başqa yerə çəkməyə çalışmasınlar. Səmimi olsunlar və desinlər: "Bəli, biznesim var, bunu da tutduğum vəzifədən irəli gələn imkanlar, imtiyazlar hesabına qazanmışam. Vəzifəsiz olsaydım, bu gün bəlkə bir toyuq hinim də olmazdı; ancaq məmuram, deputatam deyə belə böyük sərvət qazanmışam. Bacarana baş qurban!"

Bunu desinlər, biz də səmimiyyətlərini alqışlayaq, yoxsa nə küsək, nə acıqlanaq...

***Hüseyn İsgəndərov***

# Rövşən Rzayev İsraildən gələn qonaqlarla görüşdü

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev İsraildə fəaliyyət göstərən İqtisadi Sülh Mərkəzinin prezidenti Ayub Kara və mərkəzin informasiya-xəbər saytının redaktoru, siyasi təhlilçi Reyçel Avrahamla görüşüb.***

"Unikal" xəbər verir ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən il torpaqlarımızı Ermənistanın işğalından azad etməsi nəticəsində bölgədə yaranan davamlı sülh, iqtisadi inteqrasiya və əməkdaşlıq imkanları, həmçinin məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qayıdışı ilə bağlı aparılan hazırlıq işləri barədə qonağa ətraflı məlumat verilib.

Bildirilib ki, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli Azərbaycan dövlətinin sosial siyasətinin prioritetlərindən olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülüb. Birinci vitse-prezident xanım Mehriban Əliyeva hər zaman onların müraciətlərinə həssaslıqla yanaşır.



İqtisadi Sülh Mərkəzinin prezidenti Ayub Kara səmimi söhbətə görə təşəkkür edib, ölkəmizə səfərinin təəssüratlarını bölüşüb. İsrailli qonaqlar paytaxtın Qaradağ rayonundakı "Qobu Park" yaşayış kompleksində məcburi köçkünlərlə də görüşüb, onlar üçün yaradılan yaşayış və iş şəraiti ilə, "Xarıbülbül" istehsalat mərkəzinin fəaliyyəti ilə tanış olublar.

***Zaurə***



# Füzulidə iki nəfər minaya düşdü

***İyulun 8-də saat 14 radələrində 2 nəfər şəxsin Füzuli rayonunun işğaldan azad edilmiş ərazisində minaya düşmələri barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Füzuli rayon prokurorluğundan Unikal.org-a verilən məlumata görə, araşdırmalarla Füzuli rayon sakinləri Nuru Nuriyev və Elnur Həşimovun nəzarət postlarından kənar qanunsuz yollarla rayonun işğaldan azad edilmiş Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində piyada hərəkət edərkən minalanmış ərazidə piyada əleyhinə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri almaları müəyyən edilib.

Hazırda faktla bağlı Füzuli rayon prokurorluğu tərəfindən araşdırma aparılır.

# Azərbaycanda məhkumların 98 faizi vaksin olunub - RƏSMİ

***Penitensiar müəssisələrdə saxlanılan məhkumların vaksinasiyası ölkə üzrə həyata keçirilən vaksin strategiyasına uyğun həyata aparılır.***

Ədliyyə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, artıq məhkumların 98 faizi 1-ci doza, 60 faizi isə 2-ci doza vaksinasiyadan keçib:

"Yaşı 40-dan yuxarı olan məhbusların vaksinasiyası yekunlaşıb, 18 yaşdan yuxarı olanlara birinci doza vaksin vurulub, hazırda ikinci doza vaksinasiyası davam etdirilir.

Vaksinasiya prosesi cəzaçəkmə müəssisələrinin tibb məntəqələri tərəfindən həyata keçirilir. Hazırkı dövrə qədər peyvənd olunan məhkumlar arasında kəskin allergik reaksiya və ya hər hansı ağırlaşma baş verməyib".

# Nazirlik doktorantura və dissertanturaya qəbul elan edir

***Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2021-ci il tarixli 356s nömrəli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi təşkilatların 2021-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planı"na əsasən 2021-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir.***

Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrini tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Kənd Təsərrüfatı Nazirliyi 2021-ci il üçün doktorantura və dissertanturaya qəbul elan edir.pdf

Sənəd qəbulu üçün son tarix: 20 avqust 2021-ci il Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2021-ci il üçün aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertantura hazırlığına qəbul elan edir.

Sənəd qəbulu üçün son tarix: 20 avqust 2021-ci il.

# Dövlət Əmək Müfəttişliyinin çarəsizliyi, yoxsa...

## Ölkədə normativsiz işlərə cəlb edildiklərindən şikayətlənən işçilərin sayı niyə artır?

***İki gün öncə mətbuatda məlumat yayıldı ki, Azərbaycanın qida sektorunun ən böyük şirkətlərindən birinin, eləcə də həmin şirkətə daxil olan satış şəbəkəsinin işçiləri üzləşdikləri durumdan şikayətçidir. Belə ki, onlar normadan artıq işlədiklərini bildirərək əlavə ediblər ki, Əmək Məcəlləsinin tələblərinə zidd olaraq, həftədə 6 gün, gündə 12 saat işləməyə məcbur edilirlər. Yəni işçilər həftədə 72 saat istismar edilirlər.***

Şikayətdə bildirilib ki, şirkət müqavilələrdə maaşları 250 manat qeyd edib, məvacibin qalan hissəsini qeyri-rəsmi Məcəlləsinin tələblərinin kobud şəkildə pozulmasıdır. Qaydanı pozan istənilən şirkət qanunun tələbini pozur. Həmin şirkətdə çalışanlar hüquqlarının pozulması ilə bağlı aidiyyəti qurumlara müraciət etməlidirlər. Dövlət Əmək Müfəttişliyi şirkətlərdə, iş yerlərində monitorinq apararaq, baş verən qanunsuzluqlarla bağlı cərimə sanksiyaları tətbiq edə bilər. Eyni zamanda, hüququ pozulan işçi məhkəməyə də müraciət edə bilər. Təəssüf hissi ilə qeyd edim ki, insanlar iş yerini itirməmək qorxusu ilə şirkət rəhbərinin dedikləri ilə razı olurlar".

Burada ən maraqlısı odur ki, ekspert Dövlət Əmək intəhası, haqqında danışılan problemin miqyası dəyişmir. Daha doğrusu, dəyişir - mənfiyə doğru!

Ekspert o məqamda haqlıdır ki, insanlar iş yerini itirməmək qorxusu ilə şirkət rəhbərinin dedikləri ilə razı olurlar. Ancaq o da vurğulanmalıdır ki, Dövlət Əmək Müfəttişliyi də şirkətlərdən, daha doğrusu, onların arxasındakı gücdən, himayədar və ya himayədarlardan çəkinir. Bu səbəbdən də məlum məsələnin üzərinə qətiyyətli şəkildə gedə bilmir.

Başqa bir faktor isə işçinin hər hansı şikayəti ortaya çıxdıqda işəgötürənin bunu "Azərbaycansayağı" yoluna




ödəyir, bu yolla vergidən də yayınır.

Məsələyə münasibət bildirən sosial sahə üzrə ekspert İlqar Hüseynli isə yerli mətbuata açıqlamasında qeyd edib ki, Əmək Məcəlləsində işçilərin çalışması üçün normativ müəyyən edilib: "Qanunvericiliyə əsasən, vətəndaşın günlük iş saatı 8 saat olmalıdır. Həftəlik iş saatı isə təxminən 40 saatdır. Əslində, müqavilə öhdəliklərindən kənar işləyən işçilərin əməkhaqqında da çox ciddi fərq nəzərə çarpmalıdır. Şirkət əmək qanunvericiliyində nəzərdə tutulan vaxt rejimindən artıq işçini çalışdırırsa, bu, artıq Əmək Müfəttişliyi şirkətlərdə, iş yerlərində monitorinq apararaq, baş verən qanunsuzluqlarla bağlı cərimə sanksiyaları tətbiq edə bilməsini vurğulayır, lakin reallıqda mənzərə tamam başqadır. Normativsiz işlərə cəlb edildiklərindən şikayətlənən işçilərin sayı-hesabı yoxdur. Bu illər uzunudur ki, ölkədə əmək hüquqlarının müdafiəsi baxımından ən problemli məsələdir. Həmin problemi yoluna qoymalı olan isə ilk növbədə məhz Dövlət Əmək Müfəttişliyidir. Lakin adıçəkilən qurum ya zəlzələdən, ya vəlvələdən (!) bu problem qarşısında aciz qalıb. Məhz ona görə də illər dəyişir, qoymaq cəhdi, el dili ilə desək, əmək müfəttişlərini "şirinliklə" yola salmasdır.

Nəticə göz önündədir: mediada, sosial şəbəkələrdə əmək hüquqlarının pozulmasından giley-güzar edənlərin sayı günbəgün artır. Bu məsələyə məsul olan qurum isə hələ ki, belə halların tamamilə aradan qaldırılması bir yana, barı minimuma endirilməsində yetərli qədər təsir gücünə malik deyil. Ona görə də cəmiyyətin, medianın tənqid hədəfinə yalnız işəgötürənlər deyil, Dövlət Əmək Müfəttişliyi də gəlir. Həm də haqlı olaraq!

***Mələk Eyvazlı***

# Erməni təxribatında dağılan 65 evin tikintisi yekunlaşdı

***Erməni təcavüzü nəticəsində dağılan 6300-dən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə təmir-bərpa işləri və 65 fərdi evin tikintisi yekunlaşıb.***

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən "Unikal"a verilən məlumata görə, 11 rayon və şəhər ərazisində apardığı yenidənqurma və təmir-tikinti işləri surətlə davam edir.

İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən dinc şəhər və rayonları müxtəlif növ silahlarla, artilleriya və ballistik raketlərlə atəşə tutaraq mülki əhalini və eləcə də infrastruktur obyektlərini hədəf seçərək, fərdi yaşayış evlərinə, sosial və iaşə tikililərinə irimiqyaslı zərər vurub. Dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 noyabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən təşkil olunmuş fəaliyyət nəticəsində ümumilikdə 11 şəhər və rayon ərazisində 12000-dən artıq obyektə baxış keçirilib, qiymətləndirmə və təmir-tikintinin ilkin planlaşdırılması işləri aparılıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 yanvar 2021-ci il tarixli Sərəncamına əsasən həmin yaşayış evlərinə və obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər çəkmiş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib.

Bu istiqamətdə fəaliyyətə başlamaq üçün Komitə yanvar ayının sonundan etibarən ziyan dəymiş ərazilərdə təmir-tikinti işlərinə paralel olaraq start verib. İlk mərhələdə zəruri hazırlıq işləri aparılıb, məlumatlar aidiyyəti qurumlardan toplanılaraq siyahılaşdırılıb, iş həcmi dəqiqləşdirilib, ərazilər üzrə qəzalı və təmirə ehtiyacı olan fərdi yaşayış evləri, çoxmənzilli binalar və qeyri-yaşayış obyektləri olmaqla qruplaşdırılıb, həmçinin dağılmış və qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin bərpası üçün 2, 3, 4 və 5 otaqlı evlərin nümunəvi layihəsi hazırlanıb.

Hazırda Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Gəncə, Mingəçevir, Tərtər və Naftalan şəhərlərində, habelə Füzuli, Cəbrayıl, Goranboy, Ağdam, Ağcabədi, Beyləqan və Bərdə rayonları ərazisində dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlər planlaşdırılmış qrafik üzrə aparılır və onların qısa bir zamanda tamamlanaraq mərhələli şəkildə təhvil verilməsi, sakinlərin rahat həyat şəraitinə qaytarılması üçün bütün zəruri qüvvələr cəlb edilib. Tikinti və təmir-bərpa işlərinin surəti və keyfiyyətlə aparılması üçün yerlərə tikinti-inşaat materialları ilə fasiləsiz təminat həyata keçirilir.

Hazırki mərhələdə 6300-dən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə təmir-bərpa işləri artıq yekunlaşdırılıb, digər zərər çəkmiş tikililərin yenidənqurma və bərpası üzrə işlər isə surətlə davam edir.

Belə ki, görülmüş işlər müxtəlif istiqamətlər üzrə həyata keçirilib. Qismən dağıntıya məruz qalan evlər və sahibkarlıq obyektləri üzrə təmir işləri aparılıb, tikililərin divarları bərpa edilib, dam örtükləri, qapı-pəncərələri yenidən quraşdırılıb. Yenidənqurma və təmir-bərpası tələb olunan digər zərər çəkmiş obyektlər də mərhələli şəkildə zəruri tikinti materialları və texnika ilə təmin edilir, cəlb edilmiş işçi qüvvəsi tərəfindən işlər planlı şəkildə davam etdirilir. Bununla yanaşı 156 dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş fərdi ev və qeyri-yaşayış obyektlərinin yerində yeniləri inşa olunur, onlardan Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Mingəçevir və Füzuli üzrə 65 fərdi yaşayış evlərinin inşası artıq yekunlaşaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqları rəhbər tutaraq, insanların mümkün ən qısa müddət ərzində doğma şəhər və qəsəbələrində əvvəlki həyata qayıtması üçün bütün zəruri resursların səfərbər edib və 11 rayon və şəhər üzrə tikinti, təmir-bərpa işlərinin tezliklə başa çatdırılması nəzərdə tutulur.

***Hüseyn İsgəndərov***

# Məhkumların 98 faizinə vaksin vurulub

***Penitensiar müəssisələrdə saxlanılan məhkumların vaksinasiyası ölkə üzrə həyata keçirilən vaksin strategiyasına uyğun həyata aparılır.***

Ədliyyə nazirliyindən "Unikal"a verilən məlumata görə, məhkumların 98 faizi 1-ci doza, 60 faizi isə 2-ci doza vaksinasiyadan keçib: "Yaşı 40-dan yuxarı olan məhbusların vaksinasiyası yekunlaşıb, 18 yaşdan yuxarı olanlara birinci doza vaksin vurulub, hazırda ikinci doza vaksinasiyası davam etdirilir".

Rəsmi məlumata görə, vaksinasiya prosesi cəzaçəkmə müəssisələrinin tibb məntəqələri tərəfindən həyata keçirilir: "Hazırkı dövrə qədər peyvənd olunan məhkumlar arasında kəskin allergik reaksiya və ya hər hansı ağırlaşma baş verməyib".

# Ekologiya və ətraf mühitin müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Meşə torpaqlarında aqrobağların salınması meşə ekosistemini məhv edir?



**Mirsalam Qənbərov: "Meşə fondu ərazisində aqrobağların salınmasında məqsəd yaşıllıqların artırılması və səmərəli-iqtisadi-sosial layihələrin həyata keçirilməsidir"**



**Telman Zeynalov: "Meşəni qırıb aqropak yaratmaq olmaz, meşə fondunun torpağında meşə yaratmaq lazımdır!"**

***Artıq xeyli müddətdir ki, meşələrdə aqrobağların salınması məsələsi sosial platformada müzakirə olunur. Hətta ötən gün bir qrup ekoaktivist bu məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qarşısında etiraz aksiyası keçirərək meşələrdə aqrobağların salınmasına etiraz edib, meşə torpaqlarının aqrobağlar üçün sahibkarlara icarəyə verilməsinin dayandırılmasını tələb edib. Onların iddiasına görə, aqrobağların salınması üçün icarəyə verilən meşə torpaqlarında ağaclar qırılır, meşə ekosistemi məhv edilir.***

"Unikal" qəzeti meşələrdə aqrobağların salınmasının qanunla düzgün olub-olmadığını, meşə fonduna aid torpaqların hansı şərtlərlə sahibkarlara icarəyə verilməli olduğunu araşdırıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin sədri Mirsalam Qənbərov deyir ki, meşə fonduna aid torpaqlarda meyvə bağlarının salınması məqsədilə icarəyə verilməsi Nazirlər Kabinetinin müvafiq qərarı ilə tənzimlənir. Onun sözlərinə görə, qaydaya görə, meşə fonduna aid torpaqların icarəyə verilməsini aşkarlıq şəraitində, müvafiq ərazidə yaşayan əhalinin mənafeyini nəzərə almaqla Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. Mirsalam Qənbərov bildirir ki, meşə bitkiləri ilə örtülü olmayan, yəni tala olan meşə torpaqları meşələrin bərpası məqsədilə icarəçiyə müqavilə əsasında bir ildən qırx doqquz ilədək verilə bilər. O, bildirir ki, meşə fonduna aid torpaqların icarəyə götürülməsi üçün icarəçi Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidir: " Müraciət olunan gündən başlayaraq bir ay müddətindən gec olmayaraq icarəçi ilə icarə müqaviləsi bağlanılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəyə baxarkən məsələyə dair yerli meşə təsərrüfatı orqanlarının rəyini və şərtlərini əsas tutur. İcarə müqaviləsi bağlanılmadığı halda icarəçiyə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir ki, meşə torpağı hansı səbəbə görə icarəyə verilə bilməz".

Mirsalam Qənbərov onu da deyir ki, meşə fondu torpaqlarından icarə hüququnu Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən hallarda məhdudlaşdıra və ya dayandıra bilər. Buraya icarəçi tərəfindən meşə qanunvericiliyinin tələbləri pozulması, icarəçinin icarə müqaviləsinin şərtlərini pozması,meşə fonduna aid torpaqlardan səmərəli istifadəsi, mühafizəsini, qorunması və bərpası, əhalinin sağlamlığı, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqları və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallar daxildir: "Meşə fondu torpaqlarından icarə hüququ yalnız icarəçi tərəfindən meşə qanunvericiliyi pozulduqda, fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə, icarəçi tərəfindən meşə fondu torpaqlarının icarə haqqının müəyyən olunmuş müddətdə ödənilmədikdə, icarəçi tərəfindən icarə müqaviləsində nəzərdə tutulmuş şərtlər pozulduqda, icarəçi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə, meşə fondu torpaqları dövlət ehtiyacları üçün geri alındıqda məcburi xitam verə bilər".

Həmsöhbətimiz bildirir ki, meşələrdə aqrobağların salınması işlərinə 2017-ci ildən başlanılıb. 2018-2021- ci illərdə 84 hüquqi və fiziki şəxsə meşə torpağı icarəyə verilib. Bu müqavilələr əsasında 9013 hektar ərazi icarəyə verilib. Bu illərdə 10 halda müqavilənin tələbləri pozulduğu üçün 658 hektar meşə torpağının müqaviləsinə xitam verilib".

Həmsöhbətimiz bildirir ki, meşələrin elektron xəritələşməsi işləri aparılır. Xəritələr elektronlaşdıqdan sonra meşələrin elektron xəritələrini hər kəs görə biləcək.

O ki, qaldı meşə torpaqlarında aqrobağların yaradılmasına olan narazılıqlara, M. Qənbərov bildirir ki, meşə fondu ərazisində aqrobağların salınmasında məqsəd yaşıllıqların artırılması və səmərəli-iqtisadi-sosial layihələrin həyata keçirilməsidir: "Meşə fondunda daha çox fayda verən elementləri təmin etməliyik. Sahibkarlar bu işə sərmayə qoyur, regionların sosial inkişafında rol oynayırlar".

Sahibkarlara icarəyə verilən meşə torpaqlarında hansı ağacların əkilməsinə gəlincə, M. Qənbərov deyir ki, meşə ərazisində meşə bitkilərinin əkilməsi nəzərdə tutulur: "Məsələn, yonca, taxıl və sair kənd təsərrüfatı təyinatlı bitkilərin əkilməsi nəzərdə tutulmur".

Agentlik sədri onu da bildirir ki, artıq üçdörd ildir ki, meşə torpaqları aqrobağlar üçün icarəyə verilir. Ona görə də, meşə torpaqlarının icarəyə verilməsinin nə dərəcədə rentabelli olması, məhsuldarlıqla bağlı indidən danışmaq tezdir.

Ekoloq Telman Zeynalov isə bildirir ki, meşə torpaqlarının sahibkarlara icarəyə verilməsi qayda-qanunlara zidd olmasa da, bu məsələdə meşə ekosisteminin qorunmasını unutmaq olmaz. Həmsöhbətimiz deyir ki, meşə fonduna aid torpaqlar icarəyə verilərkən icarə müqaviləsi bağlayan sahibkar meşənin ekosistemini məhv etməməli, meşədəki ağacları, kolları kəsib-tökməməlidir. Ekoloq aidiyyatı qurumların bu məsələyə nəzarət etməsinin vacib olduğunu söyləyir.

Meşəni qırıb aqropak yaratmaq olmaz. Meşə fondunun torpağında meşə yaratmaq lazımdır. Meşə fonduna toxunmaq olmaz. Azərbaycanda meşə çatışmazlığı var. Hazırda ölkə ərazisinin Qarabağı çıxmaqla 8,2 faizini meşə təşkil edir. Əslində ərazimizin 30 faizini meşə təşkil etməlidir.

Qeyd edək ki, "EkoFront" vətəndaş təşəbbüsü Ekologiya və Təbii Sərvətlər Nazirliyinə meşə torpaqlarının icarəyə verilməsi prosesində şəffaflığın təmin edilməsi tələbi ilə müraciət edib. "EkoFront"un sosial şəbəkədə yayılan bəyanatında meşə fondu torpaqlarının aqrobağ salınması məqsədi ilə zəbt edilməsi və mövcud kolluq, seyrək meşəlik ekosistemlərin məhv edilməsindən narahatlıq ifadə edilir. Bildirilir ki, 2017-ci ildən Ekologiya və Təbii Sərvətlər Nazirliyi 8582 hektar meşə fondu torpağını icarəyə verib. "EkoFront" vətəndaş təşəbbüsü deputat sorğusu ilə müəyyən edib ki, meşə ərazilərinin icarəyə verilməsindən üç il ərzində 217,8 min manat və ya ildə 16 min manat əldə edilib. "EkoFront" nümayəndələri ictimaiyyətə açıq bir informasiya mənbəyi yaratmağı, icarəyə götürülmüş meşə ərazilərinin yeri barədə məlumat verilməsini təklif edirlər. "EkoFront" bildirir ki, meşə fondunun boş sahələri meşə bərpası üçün nəzərdə tutulub. Meşə fondunda aqrobağların salınması tamamilə qanunsuzdur.

Xatırladaq ki, ekoaktivistlər Haftoni-Girdani meşəsində 43 hektar meşə fondu torpağında çay bağı salınması məqsədi ilə "Beta Tea Azerbaijan" şirkəti ilə bağlanmış müqaviləyə xitam verilməsini, meşəyə dəymiş ziyanın hesablanmasını və adekvat cəza tədbirlərinin görülməsini tələb edirlər.

***Gülayə Məcid***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Güclü külək Şəmkirdə qaz təsərrüfatına ziyan vurub

***Güclü külək və normadan artıq yağıntının düşməsi Şəmkir rayonunun Seyfəli kəndi, Morul deyilən ərazi, Kiraz yolu, Könüllü kəndində ciddi fəsadlar törədib.***

Bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyi məlumat yayıb.

Bildirilir ki, qaz təsərrüfatına xeyli ziyan dəyib. Regiondakı bütün təmir-tikinti qüvvələri hadisə yerinə cəlb edilib. Tezliklə təbii qaz təminatı ilə bağlı çətinliklər aradan qaldırılacaq.

## Türkiyə və Azərbaycan azad edilmiş ərazilərdə radioloji tədqiqatlar aparacaq

***Türkiyə və Azərbaycan işğaldan azad edilmiş ərazilərdə radioloji tədqiqatlar aparacaq.***

Bu barədə Modern.az Türkiyə hökumətindəki mənbə bildirib. Bununla yanaşı Azərbaycanın işçğaldan azad edilən ərazilərində radiometrik tədqiqatların da aparılması nəzərdə tutulur.

Qeyd olunub ki, radiometrik və radioloji tədqiqatların aparılacağı ərazilər Azərbaycan tərəfindən müəyyən ediləcək: "Radiometrik və radioloji tədqiqatlar Türkiyənin Energetika və Təbii Sərvətlər Nazirliyi, Türkiyə Enerji, Nüvə və Mədən Araşdırma Təşkilatı ( TENMAK), Mineral Tədqiqat və Kəşfiyyat Baş Direktorluğu ( MTA) tərəfindən aparılacaq".

## RSXM-nin əməkdaşlarına KOICA-nın sertifikatları təqdim olunub

***Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ( KOICA) və Milli Mülki Müdafiə və İdarəetmə Təbii Fəlakətlər İnstitutunun birgə təşkil etdiyi "Təbii fəlakətlərə dair erkən xəbərdarlıq sistemi" mövzusunda onlayn təlim keçirilib.***

Təlimdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi müəssisə və təşkilatlarının, eləcə də dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) informasiya şöbəsindən bildiriblər ki, tədbirdə mərkəzin geodinamika şöbəsinin müdiri, geologiya üzrə fəlsəfə doktoru, dosent İlyas Kazımov, zəlzələ ocaqlarının dinamikası şöbəsinin müdiri, geologiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Kazımova və mərkəzin əməkdaşı Lalə Piriyeva iştirak ediblər.

Onlayn təlimin məqsədi Koreyanın informasiya texnologiyaları əsasında təbii fəlakətlərin proqnozlaşdırılması və qarşısının alınması sistemləri üzrə hazırlıq səviyyəsinin artırılması ilə bağlı olub. Təlimin sonunda iştirakçılara, o cümlədən mərkəzin nümayəndələrinə sertifikatlar təqdim olunub.



# Vətən sevdalı ömrün qəhrəmanlıq nağması

***İkinci Qarabağ müharibəsində döyüş meydanında 30 il Azərbaycan torpaqlarını əsarətdə saxlayan yağı düşmənə qan qusdurub xalqımıza zəfər sevincini yaşadan Əli Bəyulla oğlu Cəfərov Astara rayonu, Maşxon kəndində dünyaya göz açmışdı.***

O, 27 yaşında haqq savaşımızda öz canından keçməklə Vətənə, onun torpağına sevgi rəmzi olaraq köçdü qəlbimizə. İndi elə bir astaralı yoxdur ki, təkcə ailəsinə deyil, həm də millətinə baş ucalığı gətirən Əlinin adı çəkiləndə qürur hissi keçirməsin. Dövlət də öz növbəsində Əlinin Vətən qarşısında xidmətini ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq gördü.

Əli uşaqlıqdan Vətəninə, xalqına layiqli övlad kimi böyüyür. Orta məktəbdə oxuduğu vaxtlar idmanın sərbəst güləş yarışlarına qatılır, qazandığı uğurlarla el-obanı sevindirir. Saf, ülvi məqsədlərlə müstəqil həyata qədəm qoyur, yaşatmaq, yaratmaq onun amalı olur. Qısa müddətdə el-obada Əlinin yurdsevərliyinə, etibarlığına, qeyrətinə hamı heyran qalır. Qəlbi məhəbbətli olsa da, Azərbaycan torpaqlarını işğal etmiş erməni dığalarına sonsuz nifrət bəsləyir, onları əzmək üçün məqam gözləyir. Məhz 2011-ci il Ordu sıralarına yola düşəndə içdiyi andda belə olur.

Hər an qəlbi Vətən eşqi ilə çırpınan Əli qaynar bölgədə Azərbaycanın şərəfini ləyaqətlə qoruyur. Həm də mənfur erməni faşizminə layiqli cavab verməyə, müqəddəs Qarabağımızı azad etməyə hazır olmaqdan ötrü hərbi bilik və vərdişlərə dərindən yiyələnir. Əsgərlik həyatında nümunəvi xidməti, gözəl əxlaqı Əliyə dərin hörmət qazandırır.

Əli Vətənə oğulluq borcunu verəndən sonra dinc əməklə məşğul olur. Bakıda "MMC Abşeron Taxil" şirkətində işə düzəlir. Saflıq, düzlük, sədaqət, sevgi bütün əməllərinin başında durur. Gördükləri ilə adı yaxşı dillərə düşür. Qaldı ki, Əlinin xəyalı oymaq-oymaq Qarabağda dolaşır, ermənilərin hərəkətlərini heç cür qeyrətinə sığışdıra bilmir. Vətənin müqəddəs guşəsi olan Qarabağın azadlığı naminə əlinə silah alıb düşməni əzmək istəyir. Nəhayət, Əlinin arzuladığı gün gəlir. 2020-ci ilin 27 sentyabrda Ali Baş Komandanın rəhbərliyi altında Vətəni qan bahasına yaşadan qeyrətli oğullar cərgəsində müharibə meydanına girir. İlk gündən sorağı ağır döyüşlərdən gəlir. Göstərdiyi şücaət nəticəsində düşmən silah-sursatını atıb qaçır. Suqovuşanın, Murov yüksəkliyinin alınmasında isə böyük qəhrəmanlıq göstərməklə tarix yazır. Noyabrın 4-də döyüş meydanında şəhid olur. Onun şərəfli ölümü vətənə qürur gətirir. Elə bu şərəfə görə Azərbaycan var olduqca, Astra elinin qəhrəman oğlu Əli də ürəklərdə yaşayacaq.

***Zəfər Orucoğlu, AJB üzvü***

## ELAN

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Kiçik Həcmli Gəmilər Üzrə Dövlət Müfəttişliyi tərəfindən verilmiş gəmi bileti (AA№05584), texniki talon (AA№15157) itdiyi üçün etibarsız sayılır.**

# Tovuzdan Şuşaya şəhidlərin qanı ilə çəkilən zəfər yolu

***Tovuz döyüşləri... Dünyanın ən sakit, ən sülhpərvər, zəhmətkeş, sadə insanlarının yaşadığı balaca bir rayonun adının bir gün Vətən tariximizin səhifələrinə məhz bu başlıqlarla düşəcəyini kim təsəvvür edə bilərdi ki...***

Tovuz üçün 90-lardakı müharibə başlayanda dünənə qədər dostu, yoldaşı, qardaşı-bacısı bildiyi qonşularının sən demə, illərdir gizlin-gizlin onun torpaqlarında həmişə gözü olduğu həqiqəti ilə üz-üzə gəlmək çox ağrılı oldu. Buna baxmayaraq, Tovuz, birinci Qarabağ savaşında qəhrəmancasına düşmənə sinə gərdi, xeyli oğul qurban versə də, torpaqlarından bir qarış da vermədi...

Sonra atəşkəs gəldi... Adı atəşkəs olsa da, erməni kəndləri ilə üz-üzə duran rayonun sərhəd kəndlərində hər gün ən adi səsə çevrilən atışma səslərinin, təxribatların, itkilərin arası heç kəsilmədi..Tovuzlular bu atəşkəs illərində bir gün də olsun yataqlarına qorxusuz girmədilər, sülhü, barışı, sakitliyi hiss etmədilər, müharibənin dayandığına bir gün də inanmadılar.. Buna baxmayaraq, onlar öz dədə-baba yurdlarını da tərk etmədilər, o atışma, fasilələrlə baş verən xırda-iri çaplı artilleriya təxribatlarının səsləri altında öz təsərrüfatlarını əkib-becərdilər, adi həyatlarını yaşamağa çalışdılar.

Daha sonra 2020-ci ilin yayı gəldi. Bir gecənin içərisində bütün dünyanın xəbər agentlikləri Azərbaycanın bu ucqar, sadə, zəhmətkeş adamlarının yaşadığı balaca rayonun adını əzbərlədi. Düşmən yenə təxribat, yenə xain həmlə etmişdi, amma bu dəfəki xainliyin nəticəsi kimi Tovuzun adı Azərbaycanın ən yeni tarixində döyüş zamanı ali hərbi zabitinin-generalının şəhid olması xəbəri ilə həkk olunacaqdı.

"Tovuz döyüşləri" adı ilə yadda qalan hadisələr zamanı 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribata əl atdılar. Qəfil hücum cəhdini qəhrəman əsgər və zabitlərimiz öz canları bahasına dəf edə bildi, Tovuz döyüşləri isə qələbəmizi yaxınlaşdıran və xalqın səbr bardağını daşdıran son damla oldu.

İsti yay günü iyulun 12-də qəfil gələn xəbərlə yumruğa dönən millətin qəlbi bu dəfə Tovuzun Ağdam kəndi ilə döyünməyə başladı. Düşmən yenə dinc durmamışdı. Yenə şəhid xəbərləri gəlirdi, yenə qərbin mənasız və əvvəlki təxribatlar zamanı verilənlərdən fərqlənməyən bəyanatları, yenə təmkinli olmağa çağırış, yenə ikili standartlar.. Döyüşlərsə gedirdi..

Və 14 iyul... Gündüz saat 13.00-da "Xəbərlər"in xüsusi buraxılışında AR Müdafiə Nazirinin müavini Kərim Vəliyev qəhərdən boğulan səsi ilə o qara xəbəri verdi.. Azərbaycan Ordusu səhər saatlarındakı döyüşlərdə 6-sı zabit olmaqla, 7 şəhid vermişdi.. Azərbaycan Ordusu düşmən təxribatı nəticəsində döyüş meydanında GENERAL itirmişdi....

Həmin gün paytaxt Bakının səması bomboz rəngə büründü, sanki bütün Azərbaycan Polad adlı bir sükuta boğuldu...

O günün bizə millət olaraq yaşatdığı əziklik, xəcalət, qəzəb kimi hisslər o qədər qarışmışdı ki bir birinə, gözlər görməz, qulaqlar eşitməz olmuşdu... Nifrətindən düşmənə kin püskürən xalq, hava qaralana yaxın heç bir çağırışsız, heç bir təşkilatsız and yerimiz olan Şəhidlər Xiyabanına axın etməyə başladı.. Bakının küçələrini tanımaq olmurdu, Bakı minlərin, milyonların bir olub döyünən ürəyinə çevrilmişdi.. Bakı xaincəsinə öldürülən zabitlərinin qisasını istəyən, 27 ildir düşmən tapdağı altında qalan torpaqların azad olunması arzusu ilə alışıb -yanan, səbr kasası daşan, ali baş komandanın bircə əmrinə hazır olduğunu bəyan edən oğulların hayqırtısı ilə çalxalanırdı. Bakı, 1990-cı ilin qanlı yanvarından sonra ikinci dəfə əsrin xalqı adını almağa layiq olacaq möhtəşəm xalqın birliyinə şahidlik edirdi.

Nə bilərdik ki, hər şeyin taleyini məhz o gün dəyişəcəkdi...

İyulun 15-i Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosialiqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə prezidenti, ali baş komandan İlham Əliyev baş verən hadisələrlə bağlı sərt reaksiyasını bildirdi. Ermənistanın növbəti dəfə dövlət sərhədində törətdiyi təxribatı kəskin şəkildə pisləyən Ali Baş Komandan, Azərbaycan xalqının müdhiş birliyini də yüksək qiymətləndirdi.

"Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər Xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi"....(AR Prezidenti İlham Əliyev)

Çıxışında orduda xidmət etmək istəyən gəncləri səfərbərlik xidmətində qeydiyyatdan keçməyə səsləyən Ali Baş Komandan üstüörtülü şəkildə xalqına yaxın gələcəkdə baş verəcək hadisələr barədə məlumat verdi, bəlkə də o zaman çoxlarımız bu sözlərin mənasını sonacan anlamadıq, amma zəfər günü yaxınlaşırdı.. "....

O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz...." (AR Prezidenti İlham Əliyev)

Ali Baş Komandanın həmin çağırışından dərhal sonra gənclər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin ərazi bölmələrinə axın etməyə başladı. Hər kəs sürətlə yaxınlaşan zəfər günündə payı olsun istəyirdi. Bütün ölkə 27 ildən sonra yenidən yaranan bir ümid qığılcımıyla həyəcanlanırdı...

Və o gün gəldi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə nəticəsində 27 ildən bəri işğal altında qalan torpaqlarını geri qaytardı, dünya hərb tarixinə qızıl hərflərlə düşəcək Zəfər qazandı...

Təsadüfi deyil ki, Vətən müharibəsi iştirakçılarına fəxri adlar verilərkən, prezident Tovuz döyüşlərində qəhrəmancasına həlak olmuş Azərbaycan Ordusunun zabitləri general-mayor Polad Həşimova və polkovnik İlqar Mirzəyevə Milli Qəhrəman adı verdi.

Əziz Polad və İlqar qardaşlarımız! Allah taala sizə necə gözəl tale yazıb ki, ölümünüz bir millətin 27 illik işğaldan qurtulması üçün zəmiləri alışdıran qığılcıma bənzər başlanğıc oldu!

Sizlər zatən bizim qəlblərimizin qəhrəmanları idiniz! Qəhrəman əsgərlər döyüşə sizin intiqamınızı almaq, şəhid olanda sizin yanınızda dəfn olunmaq arzusu ilə gedirdilər...

İntiqamınız alındı, ELİMİN, XALQIMIN, YURDUMUN, VƏTƏNİMİN QƏHRƏMANLARI! Zəfər qazandıq, davamçılarınız sizin başladığınız işi bitirdilər, fədakarlığınız hədər getmədi, ruhunuz rahatlandı.

Tovuz döyüşlərində alışan qığılcımın alovu böyüdü, böyüdü, igidlərimizin ürəyində düz Şuşaya qədər getdi.

Bizlər, bizim övladlarımız, övladlarımızın övladları-bu Vətən var olduqca bu torpaqların üzərində gəzən hər birimiz o igidlərə borclu olacayıq. Özümüzdən sonra gələcək nəsillərə-övladlarımıza, şagirdlərimizə, tələbələrimizə bu torpaqların müstəqilliyi yolunda, toxunulmazlığı uğrunda, düşmən tapdağından azad edilməsi uğrunda canlarından keçmiş qəhrəmanlarımızın fədakarlığı barədə danışacayıq, sahib olduğumuz sülhün o oğulların qanı bahasına əldə olunduğunu dönmədən öyrədəcəyik.. Onların qarşısındakı şərəf borcumuzu daha güclü, bir daha heç bir işğalçının göz dikə bilməyəcəyi Azərbaycan qurmaqla ödəyəcəyik...

Əlbəttə ki, bu haqq ödənməz, bu haqq unudulmaz, bu borca dəyər ölçülə bilməz.

Allah rəhmət etsin!

Zəfərin mübarək, Azərbaycan!




***Əsmər Əliyeva***
***Bakı Dövlət Universitetinin dosenti***

# Qarabağda dağılan obyektlərin təmiri və evlərin tikintisi yekunlaşıb

***Erməni təcavüzü nəticəsində dağılan 6300-dən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə təmir-bərpa işləri və 65 fərdi evin tikintisi yekunlaşıb.***

Bu barədə "Unikal"a Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib. Məlumata görə, 11 rayon və şəhər ərazisində apardığı yenidənqurma və təmir-tikinti işləri surətlə davam edir.

Ermənistan silahlı qüvvələri tərəfindən dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin 6 noyabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən təşkil olunmuş fəaliyyət nəticəsində ümumilikdə 11 şəhər və rayon ərazisində 12000-dən artıq obyektə baxış keçirilib, qiymətləndirmə və təmir-tikintinin ilkin planlaşdırılması işləri aparılıb.



Nazirlər Kabinetinin 14 yanvar 2021-ci il tarixli Sərəncamına əsasən həmin yaşayış evlərinə və obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər çəkmiş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib.

Bu istiqamətdə fəaliyyətə başlamaq üçün Komitə yanvar ayının sonundan etibarən ziyan dəymiş ərazilərdə təmir-tikinti işlərinə parallel olaraq start verib:

İlk mərhələdə zəruri hazırlıq işləri aparılıb, məlumatlar aidiyyəti qurumlardan toplanılaraq siyahılaşdırılıb, iş həcmi dəqiqləşdirilib, ərazilər üzrə qəzalı və təmirə ehtiyacı olan fərdi yaşayış evləri, çoxmənzilli binalar və qeyri-yaşayış obyektləri olmaqla qruplaşdırılıb, həmçinin dağılıb və qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin bərpası üçün 2, 3, 4 və 5 otaqlı evlərin nümunəvi layihəsi hazırlanıb.

Hazırda Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Gəncə, Mingəçevir, Tərtər və Naftalan şəhərlərində, habelə Füzuli, Cəbrayıl, Goranboy, Ağdam, Ağcabədi, Beyləqan və Bərdə rayonları ərazisində dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlər planlaşdırılmış qrafik üzrə aparılır və onların qısa bir zamanda tamamlanaraq mərhələli şəkildə təhvil verilməsi, sakinlərin rahat həyat şəraitinə qaytarılması üçün bütün zəruri qüvvələr cəlb edilib. Tikinti və təmir-bərpa işlərinin surətli və keyfiyyətlə aparılması üçün yerlərə tikinti-inşaat materialları ilə fasiləsiz təminat həyata keçirilir.

Hazırki mərhələdə 6300-dən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə təmir-bərpa işləri artıq yekunlaşdırılıb, digər zərər çəkmiş tikililərin yenidənqurma və bərpası üzrə işlər isə surətlə davam edir. Belə ki, görülmüş işlər müxtəlif istiqamətlər üzrə həyata keçirilib:

Qismən dağıntıya məruz qalan evlər və sahibkarlıq obyektləri üzrə təmir işləri aparılıb, tikililərin divarları bərpa edilib, dam örtükləri, qapı-pəncərələri yenidən quraşdırılıb. Yenidənqurma və təmir-bərpası tələb olunan digər zərər çəkmiş obyektlər də mərhələli şəkildə zəruri tikinti materialları və texnika ilə təmin edilir, cəlb edilmiş işçi qüvvəsi tərəfindən işlər planlı şəkildə davam etdirilir. Bununla yanaşı 156 dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş fərdi ev və qeyri-yaşayış obyektlərinin yerində yeniləri inşa olunur, onlardan Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Mingəçevir və Füzuli üzrə 65 fərdi yaşayış evlərinin inşası artıq yekunlaşaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqları rəhbər tutaraq, insanların mümkün ən qısa müddət ərzində doğma şəhər və qəsəbələrində əvvəlki həyata qayıtması üçün bütün zəruri resursları səfərbər edib və 11 rayon və şəhər üzrə tikinti, təmir-bərpa işlərinin tezliklə başa çatdırılması nəzərdə tutulur.

# Yeni iqtisadi rayonlarının yaranması yeni mərhələnin başlanğıcıdır

***Prezident İlham Əliyevin Fərmanı ilə iqtisadi rayonların sayı 11-dən 14-ə çatdırılması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaranması ölkənin iqtisadi inkişafında yeni bir mərhələnin başlanğıcıdır.***

Bu sözləri Modern.az saytına açıqlamasında millət vəkili, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli deyib. Deputat bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsi iqtisadi rayonlarla bağlı təsnifatın yenidən müəyyənləşdirilməsi, həmçinin ayrı-ayrı rayonların, o cümlədən Qarabağ iqtisadi rayonuna daxil olan iri yaşayış məntəqələrinin vahid iqtisadi məkan daxilində, konkret yol xəritələrinə uyğun şəkildə inkişafının planlaşdırılmasını zəruri edirdi:

"Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq-bərpa işləri sürətlə həyata keçirilir, nəhəng infrastruktur layihələri gerçəkləşdirilir. Bu prosesin tərkib hissəsi kimi reallaşmaqda olan və həyata keçirilməsi nəzərdə tutulan layihələrin konkret ərazilərin təbii ehtiyatları, iqlim şəraiti, coğrafi relyefi nəzərə alınmaqla həyata keçirilməsi vacib şərtlərdən biridir. Çünki hər bir iqtisadi rayonun özünəməxsus kənd təsərrüfatı, sənaye, turizm və digər potensialı vardır və bu rayonlara daxil olan inzibati ərazi subyektlərinin vahid iqtisadi platformalar üzərindən inkişafı üçün əlverişli zəmin hazırlanmalıdır. Konkret iqtisadi rayon daxilindəki inzibati ərazi subyektlərinin iqtisadi potensialı arasındakı uyğunluq müxtəlif istiqamətlər üzrə layihələrin daha optimal və daha səmərəli bir şəkildə həyata keçirilməsinə imkan yaradır. Məhz bu baxımdan, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının daxil edilməsi, gələcəkdə bu inzibati ərazi subyektlərinin iqtisadi imkanları nəzərə alınmaqla həyata keçirilən layihələr arasında sinerjinin yaranmasına, xərclərin azaldılmasına və investisiyalardan daha səmərəli istifadə olunmasına yol açacaq".



Azər Kərimlinin sözlərinə görə, Azərbaycan Prezidentinin sözügedən fərmanı ilə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarının daxil olduğu yeni Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyətə malikdir: "Şərqi Zəngəzur iqtisadi rayonu Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsi nəticəsində bölgənin ən önəmli iqtisadi rayonlarından birinə çevriləcək. Digər tərəfdən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati ərazi subyektlərinin hər biri zəngin təbii ehtiyatlara malikdir və bu da onların vahid iqtisadi məkan çərçivəsində inkişafı üçün yeni imkanlar açır. Bu ərazilərdə dağ-mədən sənayesinin, turizmin bütün seqmentlərinin inkişafı üçün böyük imkanlar var və çox güman ki, yaxın zamanlarda biz, bu iqtisadi rayonlarda həyata keçiriləcək layihələrin yol xəritələrindən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji hədəfləri daha aydın şəkildə görə biləcəyik. İndiki şəraitdə, yeni yaradılan iqtisadi rayonların adları və tərkibləri belə, bizə bu hədəflərin nə qədər böyük olduğunundan xəbər verir".



# İran və Azərbaycan məhsullarının birgə yarmarkası keçiriləcək

***İran və Azərbaycan məhsullarının birgə sərgi və satış yarmarkasının keçirilməsini təklif olunub.***

Azərbaycan Sahibkarlar Konfederasiyasından a verilən məlumata görə, bu təklifi İranın Şərqi Azərbaycan (Təbriz) valisinin iqtisadi məsələlər üzrə müavini Əli Cahangiri ASK-nın prezidenti Məmməd Musayevlə görüşü zamanı səsləndirib.

O həmçinin gələcəkdə müştərək sərbəst bazar zonasının yaradılması və Təbrizə biznes-missiyasının təşkili ilə bağlı təkliflər irəli sürüb.

Ə. Cahangiri təmsil etdiyi bölgənin və ümumilikdə İranın böyük iqtisadi və investisiya potensialı, Azərbaycan və İran sahibkarlarının birgə müəssisələr yaradaraq iki ölkə arasında ticarət dövriyyəsinin artırılması və gələcəkdə bu məhsulları üçüncü ölkələrə ixrac etmək imkanları barədə fikirlərini bölüşüb.

Daha sonra, ASK ilə Təbriz Ticarət, Sənaye və Mədənlər Palatası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandum, birgə fəaliyyət üçün sənaye sahələrinin müəyyənləşdirilməsi, əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin hazırlanması üçün potensial imkanların müəyyən edilməsi kimi məqsədləri əhatə edir.

# Dövlət qiymətli kağızları olmasa, Bakı Fond Birjası nə edər?

***Əgər Mərkəzi Bank, Maliyyə Nazirliyi, İpoteka və Kredit Zəmanəti Fondu qiymətli kağızlar yerləşdirməsəydilər, bu dövrdə Bakı Fond Birjası demək olar ki, işsiz qalardı.***

2021-ci ilin ilk 6 ayında Bakı Fond Birjasında əqdlərin cəmi həcmi 8 milyard 303 milyon 60 min manat təşkil edib.

Əməliyyatların 8 milyard 263 milyon 724 min manatlıq hissəsi və ya 99,5%-i dövlət qiymətli kağızları üzrə (Mərkəzi Bankın notları, Maliyyə Nazirliyinin dövlət istiqrazları və İpoteka və Kredit Zəmanəti Fondunun ipoteka istiqrazları), 39 milyon 336 min manatlıq hissəsi və ya 0,5%-i özəl sektorun qiymətli kağızları üzrə (səhmlər və istiqrazları) olub.

2021-ci ilin ilk 6 ayında dövlət istiqrazları üzrə 4 milyard 392 milyon 477 min manatlıq, Mərkəzi Bankın notları üzrə 3 milyard 703 milyon 289 min manatlıq, ipoteka istiqrazları üzrə 167 milyon 910 min manatlıq əqdlər bağlanıb.

Bu ilin ilk 6 ayında korporativ qiymətli kağızlar bazarında özəl sektor tərəfindən cəmi 5 milyon 500 min manatlıq səhmlər, 2 milyon manatlıq istiqrazlar yerləşdirilib. Qısası, dövləti çıxsaq qiymətli kağızlar bazarı yox səviyyəsindədir.



# Ermənistanda hərbçilər arasında kütləvi dava

*Ermənistan ordusunun Gorus rayonunda yerləşən hərbi hissələrinin birində hərbi qulluqçular arasında kütləvi dava olub.*

Unikal.org erməni KİV-lərinə istinadla xəbər verir ki, yayılan məlumatlarda spirtli içki qəbul edən bir neçə hərbi qulluqçu arasında axşam saatlarında başlayan mübahisənin sonradan kütləvi davaya çevrildiyi bildirilib. Davaya hərbi qulluqçu Narik Abelyanın xidmət yoldaşlarına qarşı nalayiq hərəkətləri səbəb olub.

Dava nəticəsində bir neçə hərbçi müxtəlif dərəcəli xəsarətlər alıb.

# Dominikan Haiti ilə sərhədi bağladı

*Haiti Prezidenti Jovenel Moizinin qətlə yetirilməsindən sonra bu ölkədən qaçqın axını təhlükəsinə qarşı Dominikanda epidemioloji həyəcan elan edilib.*

Unikal.org xəbər verir ki, bu barədə Dominikanın Səhiyyə Nazirliyinin epidemiologiya şöbəsinin rəhbəri Ronald Skeves bildirib.

Səhiyyə Nazirliyinin nümayəndəsi Haiti ilə sərhəddə işləyən epidemioloqların üzərinə xüsusi bir yük düşdüyünü söyləyib.

Qeyd edək ki, Haiti Prezidenti Jovenel Moizi iyulun 7-də iqamətgahına edilən silahlı hücum nəticəsində öldürülüb. Baş nazir vəzifəsini icra edən Klod Jozef ölkədəki təhlükəsizlik vəziyyətinin Haiti Milli Polisi və Silahlı Qüvvələrinin nəzarəti altında olduğuna əmin edərək, əhalini sakit olmağa çağırıb.

Moizi öldürüldükdən sonra Dominikan Prezidenti Luis Abinader Haiti ilə dövlət sərhədinin tamamilə bağlanmasını əmr edib. Sərhəd bölgələrində təhlükəsizliyi təmin etmək üçün fəaliyyət planı hazırlamaq məqsədilə ölkənin hərbi rəhbərliyinin təcili iclası keçirilib.

# NASA-nın kamerasında yad cisimlər

*NASA-nın Beynəlxalq Kosmik Stansiyasının (BKS) canlı yayımında olan görüntülər müzakirələrə səbəb olub.*

Unikal.org xəbər verir ki, diqqət çəkən görüntüdə ən azı 10 naməlum obyekt hərəkət edir.

Yer planetindən başqa digər qalaktikalarda yaşamın olub-olmaması hələ də gündəmdə qalan məsələlərdəndir. Lakin hələ kainatda tək olmadığımız haqqında heç bir rəsmi fakt yoxdur. Ancaq NASA-nın canlı yayımında görünən yad cisimlər yenidən bu mövzunu gündəmə gətirib.

ABŞ isə son həftələrdə dünyanın səbirsizliklə gözlədiyi UFO-lar haqqında hesabatını yayımlayıb. Hesabatı hazırlamaq üçün ABŞ Müdafiə Nazirliyi (Pentaqon), Donanma pilotları tərəfindən 20 il ərzində bildirilən 140-dan çox məlumatı araşdırıb.

Məlumata görə, Amerika kəşfiyyatı səlahiyyətliləri Donanma pilotlarının gördüyü cisimlərin yadplanetlilər olduğuna inanmırlar. Ancaq bu uçan cisimlərin də nə olduğunu izah edə bilmirlər.

***Ağarza Elçinoğlu***

# Putin "Belarus kartı"nı əla oynayır: Lukaşenko tarixin yolayrıcında - TƏHLİL

*Belarusda keçən ilin avqustunda prezident seçkilərindən sonra başlayan və ilin sonuna qədər davam edən kütləvi etiraz aksiyalarının yatırılması ilə bağlı hakimiyyətin həyata keçirdiyi sərt tədbirlərə qarşı Qərb dövlətlərinin reaksiyaları əvvəlcə daha çox siyasi xarakter daşıyırdı. ABŞ və Avropa ölkələri seçkilərin nəticələrini tanımadıqlarını bəyan etsələr də, Minskə qarşı iqtisadi sanksiyaların tətbiqinə tələsmirdilər.*

Həmin dövrdə iqtisadi sanksiyaların tətbiqinə ehtiyac da yox idi. Çünki ölkənin əsas gəlir mənbəyi hesab olunan iri şirkətlərin işçiləri zatən etiraz əlaməti olaraq, istehsalatı dayandırmışdılar. Bundan



əlavə, kütləvi etiraz aksiyaları və seçkilərin nəticələrinin Qərb dövlətləri tərəfindən tanınmaması Belarusa beynəlxalq etimadı azaltmış, nəticədə ölkənin valyutasının dəyəri sürətlə düşməyə başlamışdı.

Lakin Lukaşenko sırf Rusiyanın dəstəyilə ictimai-siyasi vəziyyəti sabitləşdirməyə nail oldu, ardınca isə Moskvanın təqdim etdiyi bir milyardlıq güzəştli kreditin hesabına iqtisadiyyatını dirçəltməyə başladı. Təbii ki, Rusiyanın köməyi təmənnasız deyildi - Moskva, nəhayət ki, Belarusu "ittifaq dövləti" adı ilə öz nəzarətinə keçirməyi planlaşdırırdı. İllərdir Qərblə Rusiya arasında balanslaşdırma siyasəti apararaq, ölkəsinin suverenliyini qorumuş Lukaşenkonun hakimiyyətini saxlamaq üçün Moskvaya sığınmaqdan başqa çıxış yolu qalmamışdı.

Bununla belə, etiraz aksiyaları başlayandan yalnız yeddi ay sonra, yəni 2021-ci ilin fevral ayında Avropa Birliyinin "Belarusda insan hüquqlarının pozulması" adı ilə iqtisadi sanksiyalar paketinin hazırlandığı elan olundu.

Fəqət yenə də konkret addımlar atılmırdı. Bu da Belarusun tam olaraq Rusiyanın nəzarətinə keçməsinə imkan verilməməsi üçün Qərbin sərt iqtisadi sanksiyalara əl atmayacağı ilə bağlı proqnozların səslənməsinə əsas yaradırdı. Güman ki, Lukaşenko da buna ümid edir, siyasi böhran başa çatdıqdan sonra tədricən Avropa ilə münasibətləri düzəldərək, yenidən Rusiya ilə Qərb arasında tarazlıq yaratmaq hesabına ölkəsinin suverenliyini qoruyub saxlayacağını düşünürdü.

Vəziyyəti kardinal şəkildə dəyişən bu ilin may ayının 23-də İrlandiyanın "Ryanair" şirkətinə məxsus sərnişin təyyarəsinin Minskdə məcburi yerə endirilməsi və təyyarədə olan "Nexta" teleqram kanalının rəhbəri Roman Protaseviç ilə onun rəfiqəsi Sofiya Sapeqanın həbs edilmələri oldu. Bu hadisə Qərb üçün sanki siqnal rolunu oynadı və AB tərəfindən Belorusa qarşı ən sərt iqtisadi sanksiyaların tətbiqi qərara alındı.

Sanksiyaların arasında neft məhsulları, kalium kübrəsi və tütün məmulatlarının Avropaya ixracına, hətta ixrac üçün Avropa ölkələrinin ərazisindən tranzit kimi istifadə olunmasına qadağanın qoyulması Belarus iqtisadiyyatına ölümcül zərbə sayıla bilər. Bundan əlavə, AB Belarusa öz maliyyə bazarlarına girişi bağladı, dövlət şirkətlərinin sığortasını qadağan etdi və Avropa investisiya Bankının ödənişlərini dayandırdı.

Qeyd edək ki, Belarus büdcəsinin 93 faizi sənaye müəssisələrinin ixracı hesabına formalaşır və illik 7 milyard dollarlıq məhsul Avropa ökələrinə ixrac olunur. Dünya üzrə kalium kübrəsinin 20 faizini istehsal edən "Belaruskaliy" dövlət şirkəti məhsulun yalnız 10 faizini Avropaya, yerdə qalanını isə Hindistan, Braziliya və Çinə satırdı. Ancaq məsələ burasındadır ki, Belarusun ixracının 90 faizi Litvanın Klaypeda dəniz limanından həyata keçirilirdiyi üçün, yeni sanksiyalar ümumiyyətlə xaricə məhsul göndərilməsini müşkülə çevirir.

Ölkənin "Balneftxim" konserni illik 4,2 milyard, "Belaruskaliy" dövlət şirkəti isə 2,4 milyard dollarlıq məhsul ixrac edirdi ki, sanksiyaların qüvvəyə minməsiylə bu məhsulların dünya bazarına çıxarılması mümkün olmayacaq. Avropa Birliyi sanksiyalarla bağlı yaydığı rəsmi açıqlamada Belarusda son dövrlərdə insan hüquqlarının pozulması, jurnalistlərə qarşı zor tətbiq edilməsi, vətəndaş cəmiyyəti üzvlərinin cəzalandırılması və Roman Protaseviç ilə Sofiya Sapeqanın həbsinə görə bu qərarın qəbul olunduğunu bəyan edib.

Güman etmək olar ki, Lukaşenko, Avropa təyyarəsinin yerə endirilərək, jurnalist Protoseviçlə onun rəfiqəsini həbs etmək qərarını Kremlin "tövsiyəsi" ilə verib. Rusiya mediasının Lukaşenkonun bu addımının doğruluğunu əsaslandırmaq üçün dəridən-qabıqdan çıxması, hətta prezident Vladimir Putinin öz çıxışında Minskin hərəkətinə bəraət qazandırması Moskvanın prosesin iştirakçısı olmasından xəbər verirdi. Təbii ki, Kremlin öz məqsədləri vardı: Moskva AB-nin sanksiyaları ilə üzləşən Belarusu özündən tam asılı vəziyyətə salacaq və Amerka prezidenti ilə gözlənilən danışıqlarda "Protaseviç" kartından istifadə edəcəkdi.

"Ryanair" təyyərəsinin yerə endirilməsini və Protaseviçin həbsini kəskin tənqid edən Baydenin Rusiya prezidenti ilə iyunun 16-da keçirilən görüşündə bu məsələni qaldıracağı heç kəsdə şübhə doğurmurdu. Həqiqətən də, bu görüşdən sonra Protaseviçin həbsi ev düstaqlığı ilə əvəz olundu və bu yolla Putin Baydenin tələblərindən birini yerinə yetirərək, əlavə xal qazanmaqla yanaşı Rusiyada həbs olunmuş müxalifətçi Navalnının məsələsinin üzərindən sükutla keçilməsinə nail oldu.

Beləliklə, Avropanın Belarusu heç bir halda Rusiyadan tam asılı vəziyyətə düşməyə qoymayacağı ilə bağlı proqnozlar özünü doğrultmadı. Sanksiyalardan sonra Lukaşenko nəinki hakimiyyətini saxlamaq, hətta ölkə əhalisini ərzaqla təmin etmək üçün Rusiyanın yardımlarına möhtacdır. Rusiya ilə "ittifaq dövləti" qurmaq istəyən Belarus yaxşı halda federal subyektlərdərdən birinə çevrilə, Lukaşenko isə, hakimiyyətdə saxlanılarsa, Çeçenistan prezidenti Kadırov, yaxud, İnquşetiya prezidenti Kalimatovla eyni sırada dayana bilər. Odur ki, iki seçim qarşısında qalıb:

1) Rusiyanın şərtlərilə razılaşıb, ittifaq dövləti qurmaq. Bu halda ölkənin suverenliyindən söhbət gedə bilməz, hətta Lukaşenkonun uzun müddət hakimiyyətdə qalacağına belə, zəmanət verilmir.

2) Avropa ilə gizli danışaqlara gedib, müəyyən şərtlər müqabilində hakimiyyətdən uzaqlaşmaq və ölkənin tam olaraq Qərbə yönəlməsilə razılaşmaq. Bu halda da, Belarusun şərq hissəsində yaşayan rusdilli əhali Ukraynada olduğu kimi "öz hüquqlarının tapdalandığını" əsas gətirib, müstəqilliklərini elan edə bilərlər. Moskva isə rusdilli əhalinin hüquqlarını hər vasitə iə qorumağı özünə borc biləcək.

***Tofiq Vahid***

# Tarixi rekordu təkrarlandı - “Neftçi”nin



***Emin Mahmudov “Neftçi”nin tarixinin rekordunu təkrarlayıb.***

Apasport.az saytının məlumatına görə, 29 yaşlı yarımmüdafiəçi Bakı klubunun heyətində avrokuboklarda ən çox qol vuran futbolçu adına şərik çıxıb. Emin buna Gürcüstanın paytaxt Tbilisidə yerli “Dinamo” ilə oyunda nail olub. Penaltidən vurduğu qolla komandasına 2:1 hesablı qələbə qazandıran kapitan “ağ-qaralar”ın heyətində 5-ci dəfə fərqlənib.

İndiyədək yalnız bir futbolçu “Neftçi”nin avrokubok matçlarında bu qədər qol vurub. Bu rekord syerra-leoneli Julius Vobaya məxsusdur. Mahmudov bu rekorda şərik çıxıb. Mütləq rekord üçün Eminə bir qol lazımdır.

Qeyd edək ki, Mahmudov Çempionlar Liqasında 1, Avropa Liqasında 4 qola imza atıb.

# “Sona qədər mübarizə getdi, temp düşmədi” - Qurban Qurbanov

***“Maraqlı oyun oldu. Düzü, futbolçular bir az çətinlik çəkdilər”.***

Bunu “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Sofiya MOİK-i ilə keçirilən yoxlama görüşünü dəyərləndirərkən deyib.

Təcrübəli mütəxəssis klubun yutub kanalına açıqlamasında komandasının 1:0 hesabı ilə qalib gəldiyi görüşdən razılıq bildirib: “Rəqibin Avstriyada keçirdiyi 4-cü oyun idi. Onların hazırlığı bizdən daha yaxşı səviyyədə idi. Üstəlik, heyətimizdə də problemlər var idi. Bəzi oyunçularımızı qoruduq, 90 dəqiqə meydanda saxlamadıq. Futbolçuların sürət, mübarizə hiss etməsi baxımından mənim üçün çox vacib görüş idi. Rəqib də tam istədiyimiz kimi idi”.

Qurbanov bəzi problemlərinin olduğunu da etiraf edib: “Birinci hissədə texniki səhvlərimiz bir az çox oldu. Bu da başadüşüləndir. İstənilən halda oyundan razı qaldım. Sona qədər mübarizə getdi, temp düşmədi. Bir az çətinliklərimiz var. Bugünkü oyunda da tam hiss olundu. İnanıram ki, yaxın zamanda bunları aradan qaldıracağıq. Görüşü qalibiyyətlə bitirmək tam yerinə düşdü”.



# Dünəni “Barselona”, bu günü icarələr - sabahı qaranlıq

***“Sabah”ın yeni transferi Xuan Kamaranın karyerasının əvvəli parlaq gələcək vəd edirdi.***

Apasport.az saytının məlumatına görə, ispaniyalının gəldiyi son nöqtə əslində sıradan bir futbolçu olduğunun isbatıdır.

“Vilyarreal” akademiyasında yetişəsən, oradan “Barselona”nın B komandasına yollanasan və bir futbolçu karyerasının ən gözəl illəri sayılan 28 yaşında “Sabah”ın formasını geyinəsən... Bu, göyün yeddinci qatından yerin ən qaranlıq dibinə qədər düşmək kimi bir şeydir.

Kamaranın karyerasına qısaca göz gəzdirək, nə dediyimizi anlayacaqsınız. 2011-ci ildə “Vilyarreal”ın U-19 komandasından C kollektivinə cəlb edilən, bir müddət ikinci heyətində də yer alan vinger 2014-cü ildə “Barselona” akademiyasına qatılıb. Ancaq orada keçirdiyi 4 il ərzində gah Sequndada oynayıb, gah da başqa klublara icarəyə verilib.

Bu illər ərzində Kamaranın öyünə biləcəyi cəmi 2 oyunu olub. 2015/16 mövsümündə “Barselona”nın əsas komandasının heyətində Çempionlar Liqasının qrup mərhələsində “Bayer”lə görüşün son 16 dəqiqəsində Lionel Messi ilə birgə çıxış edib. Həmin mövsüm İspaniya Kral Kubokunda da “Valensiya”ya qarşı yarımfinal mərhələsinin cavab matçının son 14 dəqiqəsində şans qazanıb. Kataloniyalılar ilk görüşdə 7:0 hesablı qələbə qazandığından, Luis Enrike cavab matçına əvəzediciləri meydana buraxmışdı. 2016/17 mövsümündə “Jirona”nın, bir il sonra da “Reus Deportiu”nun heyətində kubokun ikinci mərhələsində təxminən 70 dəqiqə iştirak edib.

Kamara İspaniyada olduğu müddətdə ümumilikdə 154 oyun keçirib, 26 qol vurub. Qolların hamısı da II və III liqada qeydə alınıb.

Futbolçunun peşəkar karyerası ərzində 2018-ci ildə, yəni 24 yaşında başlayıb. O da Avropanın hansısa güclü liqasında yox, Polşada. “Vilyarreal” və “Barselona” məktəbləri görmüş Kamara Polşada da ona bəslənilən ümidləri puç edib. Təsadüfi deyil ki, geridə qalan 3 il ərzində 4 klubun formasını geyinib. Nə “Medz Leqnitsa”da, nə “Yagelloniya”da, nə də icarə əsasında oynadığı “Dinamo” (Buxarest, Rumıniya) və “Universitatya Krayova”da (Rumıniya) ön xətt oyunçusu kimi istənilənı verməyib. Bu üç il ərzində 89 görüşdə cəmi 8 qol qolçuluq bacarığının nə dərəcədə olduğunu göstərir.

Statistika Kamaranın yenicə yola salınan Ramil Şeydayev, Amadu Diallo və Kevin Kubembadan heç də fərqli olmadığını deyir. Belə bir vəziyyətdə “Sabah”ın onu hansı məntiqlə heyətə qatdığını yalnız klub rəhbərliyi bilər. Ancaq bu cür transfer siyasəti ötən mövsüm fiaskoya uğrayan bir klub üçün xoş gələcək, parlaq sabah vəd etmir.



# İngiltərə - Danimarka matçı: maraqlı məqamlar

***AVRO-2020-nin ikinci yarımfinal matçı bəzi maraqlı məqamlarla əlamətdar olub.***

Apasport.az saytı İngiltərə - Danimarka qarşılaşmasının (2:1, əlavə vaxtda) statistik məqamlarını təqdim edir.

AVRO-2020-də 7-ci dəfə əlavə vaxt zərurəti yaranıb. Bu, qitə çempionatlarının rekordudur. Böyük turnirlərdən yalnız DÇ-1990 və DÇ-2014-də daha çox - 8 belə hadisə yaşanıb.

Qitə çempionatlarında 5-ci dəfə hər iki yarımfinalda əlavə vaxt oynanılıb. 1976, 1984, 1996 və 2000-ci illərdə də finalçılar belə müəyyənləşib.

Danimarkalı Simon Kyer turnirdə 11-ci avtoqolun müəllifi olub. İndiyədək bütün çempionatlarda ümumilikdə 9 dəfə futbolçular topu öz qapısına vurub.

İngiltərə tarixində ilk dəfə Avropa çempionatının finalına çıxıb.

Ümumilikdə isə İngiltərə DÇ-1966-dan 55 il sonra finala yüksəlib. Bu, hər hansı Avropa komandasının iki finalı arasındakı ən böyük fərqdir.

Harri Keyn AVRO-2020-dəki qol sayını seçmə mərhələ ilə birlikdə 16 topa çatdırıb. Bu, Kriştiano Ronaldonun cari çempionatda imza atdığı rekordun təkrarıdır.

Harri Keyn böyük turnirlərin final mərhələlərində ən çox qol vuran İngiltərə futbolçusu Harri Linikerin rekordunu təkrarlayıb - 10 top.

Harri Keyn Avropa çempionatları tarixinə əlavə vaxtda penaltidən yararlana bilməyən ilk oyunçu kimi düşüb.

Harri Keyn Avropa çempionatının final mərhələsində qaçırdığı penaltini təkrar zərbə ilə tora qovuşduran ikinci oyunçudur. Şimali Makedoniyalı Alioski də eyni taleyi yaşayıb.

Mikkel Damsqard AVRO-2020-də cərimə zərbəsindən qol vuran ilk futbolçu olub.

İngiltərə Avropa çempionatının final mərhələsində 5 quru oyun keçirib və seriya Danimarka ilə görüşdə qırılıb. Mütləq rekord AVRO-2012 və AVRO-2016-da 7 quru oyun keçirən İspaniyaya məxsusdur.

Cordan Pikfordun quru seriyası 479 dəqiqə davam edib. O, turnirin tarixində 5-ci göstəriciyə imza atıb. Niderlandlı Edvin Van der Sar 594, ispaniyalı İker Kasilyas 509, italiyalı Dino Zoff 494, almaniyalı Manuel Noyer 491 dəqiqə qapısını toxunulmaz saxlayıb.

İngiltərə millisi martdan sonra ilk qolunu buraxıb. Onların quru seriyası 691 dəqiqə sürüb.

Cordan Pikford ümumilikdə 749 quru dəqiqə keçirib. O, Qordon Benksın 1966-cı ildəki 720 dəqiqəlik rekordunu arxada qoyub.

“Çelsi” yeganə klub olub ki, yarımfinalçıların dördünün də heyətində təmsil olunub.